# Mayın 1-dən 5-dək məktəblərdə ibtidai siniflər üçün yaz tətili olacaq



**Azərbaycandakı ümumtəhsil məktəblərində ibtidai təhsil səviyyəsi üzrə qaydalara əsasən müəyyən olunmuş günlərdə yaz tətil günləri olacaq.**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Təhsil Nazirliyindən bildirilib.

Qeyd edək ki, 2021-2022-ci tədris ilində ibtidai siniflər üçün isə 5 günlük əlavə yaz tətili (1-5 may) müəyyən olunub.

*Xatırladaq ki, pandemiya səbəbindən məktəblərdə tədris gec başladığından şagirdlərin payız və qış tətili ləğv edilmişdi. Ona görə də payız tətili günlərindən 16-19 noyabr, qış tətili günlərindən 27, 28 və 31 yanvar tarixləri dərs günləri idi.*



## Xarici diplomatlar Kiyevə qayıdır

**Xarici ölkələrin diplomatları Kiyevə qayıtmağa başlayır.**

APA Unian.net-ə istinadən xəbər verir ki, Sloveniyanın Ukraynadakı səfirliyinin müvəqqəti işlər vəkili Boştyan Lesyak Kiyevə dönüb.

*Sloveniya Baş naziri Yanez Yanşi diplomatların tam heyətdə Kiyevə dönəcəyini qeyd edib.*


№ 52 (5574), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 mart 2022-ci il (çərşənbə axşamı)




# Məktəbli formaları hər 3 ildən bir dəyişdiriləcək

Valideynlər sosial şəbəkələrdə yenə “qiyamət qopardı”

Nazirlər Kabinetinin məktəbli formalarının hər 3 ildə yenilənməsinə dair qərarı sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. Valideynlər vahid məktəbli formasının niyə dəyişikliyə uğradığını, bu azmış kimi 3 ildən bir dəyişiləcəyini narazılıqla qarşılayıblar.

(səh.4)



## Ukraynadan Bakıya zəng gəldi

Zelenski humanitar yardıma görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib

**Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Söhbət zamanı Prezident Volodimir Zelenski dövlətimizin başçısını Ukraynadakı vəziyyət barədə məlumatlandırıb.

Prezidentlər humanitar dəhlizlərin yaradılması və sülh danışıqlarının davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Telefon danışığı əsnasında Prezident Volodimir Zelenski tibbi ləvazimatlar daxil olmaqla, Ukraynaya göstərilən humanitar yardıma görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan daim humanitar məsələlərə böyük önəm verir və xüsusi diqqətlə yanaşır.

## Ərdoğan açıqladı

Türkiyə prezidentinin Putin və Zelenski ilə danışıqlarında müsbət irəliləyişlər var



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna həmkarları Vladimir Putin və Volodimir Zelenski ilə telefon danışıqlarının müsbət istiqamətdə inkişaf etdiyini bildirib.**

Trend-in məlumatına görə, bu barədə Türkiyə prezidenti ölkənin Nazirlər Kabinetinin iclasından sonra çıxışında deyib.

Türkiyə dövlət başçısı onu da bildirib ki, sabah İstanbulda keçirilməsi planlaşdırılan Rusiya-Ukrayna danışıqlarından əvvəl Türkiyə tərəfi nümayəndə heyətlərinin üzvləri ilə qısa görüş keçirəcək.

# Ümidlər İstanbuladır

Ukrayna-Rusiya danışıqları Türkiyədə aparılacaq



“İlk danışıqlar nəticəsiz olacaq. Yekun sülhdə Putin və Zelenski Türkiyədə bir araya gələ bilər”

**Ukrayna və Rusiya Türkiyədə üçgünlük danışıqlar raundunun keçirilməsi ilə bağlı razılığa gəlib.**

Ukrayna nümayəndə heyətinin üzvü David Araxamiya deyib ki, videoformatda keçirilən danışıqda növbəti canlı raundun Türkiyədə 28-30 mart tarixlərində keçirilməsi razılaşdırılıb. Qeyd edək ki, tərəflər arasında sonuncu görüş martın 21-də videokonfrans formatında keçirilmişdi.

Ukrayna Prezidenti Vladimir Zelenski deyib ki, Kiyev təhlükəsizlik qarantı və neytral statusu müzakirə etməyə hazırdır: "Təhlükəsizlik qarantı, neytrallıq, ölkəmizin nüvəsiz statusu... Biz buna getməyə hazırıq.

(səh.3)

# Fərrux yüksəkliyi ordumuzun nəzarətindədir

Artıq Xocalıdan, Xankəndidən danışa bilərik



**2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanata uyğun olaraq Xocalının Fərrux kəndi bölgədə müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının nəzarətinə keçmişdi.**

Ancaq ermənilərin qanunsuz silahlı dəstələri 30 il əvvəlki kimi yenidən Fərruxdan atəş açmağa və regionda atəşkəsi pozmağa başladı. Nəticədə Azərbaycan Ordusu əməliyyat keçirərək ərazini qanunsuz silahlılardan təmizlədi. Lakin bundan sonra Rusiya Müdafiə Nazirliyi öz ifadəsi elə desək, "Dağlıq Qarabağ münaqişəsi zonası"nda sülhməramlı kontingentinin fəaliyyəti haqqında məlumat yayıb.

(səh.3)




## Ayaz Mütəllibov I Fəxri Xiyabanda dəfn olundu

Keçmiş prezident Xalq şairi Cabir Novruzun məzarı yanında torpağa tapşırılıb

**Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov 84 yaşında vəfat edib. Sabiq prezident 1 Fəxri Xiyabanda dəfn olunub.**

Dəfn mərasimində mərhumun ailə üzvləri iştirak edib. O, Xalq şairi Cabir Novruzun məzarı yanında torpağa tapşırılıb. Sabiq prezident Ayaz Mütəllibovla Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində vida mərasimi keçirilib.

(səh.2)

## Azad edilmiş 210 kənddə minalanmış ərazilər müəyyən edilib




**Ötən il işğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursatların təmizlənməsi və zərərsizləşdirilməsi əməliyyatları həyata keçirilib.**

Bu, "Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında icmal hesabatı"nda yer alıb.

Hesabatda qeyd edilib ki, 2021-ci ildə innovativ həllərin, yeni texnologiyaların tətbiqi çərçivəsində mülti-sensor cihazlar ilə təchiz edilmiş dronlar vasitəsilə minalanmış ərazilərin kənardan tədqiq edilməsinə başlanılıb. Yeni texnologiyaların tətbiqi nəticəsində işğaldan azad olunmuş ərazilərdə ümumi həcmi 18 min hektar olan müxtəlif sahələr üzrə təhlükəli obyektlər və onların koordinatlarını əks etdirən məlumatlar Minatəmizləmə Agentliyinə (ANAMA) təqdim olunub. Ayrı-ayrı mənbələrdən toplanmış informasiyaların təhlili əsasında işğaldan azad edilmiş və müharibənin təsirinə məruz qalmış 210 kənddə minalanmış ərazilər müəyyən edilib.

## Cəmi 16 nəfər koronavirusa yoluxub

3 nəfər vəfat edib, 47 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 47 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 791 766 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 781 788 nəfər müalicə olunaraq sağalıb, 9 684 nəfər vəfat edib, aktiv xəstə sayı 294 nəfərdir.*



## Azərbaycanda "5-ci kolon" aktivləşib

Pənah Hüseyn: “Onların qarşısı dərhal alınmalıdır”

(səh.4)

## Rusiyanın təbliğatı çökür, dayaqları çat verir

Moskva özünü gerçək informasiyadan qorumaq üçün müəyyən addımlar atır

(səh.5)





# Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışı olub

## Binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib.**

"Şərq" xəbər verir ki, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb.

Mərkəzdə gözləmə zalları, qəbulların aparılacağı xidməti otaqlar, kollektiv qəbullar üçün nəzərdə tutulan müxtəlif ölçülü zallar, həkim, psixoloq, hüquq məsləhətçisi, ana və uşaq otaqları vardır.

Vətəndaş Qəbulu Mərkəzində tətbiq olunan yeniliklərdən biri də Çağrı Mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir. Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi vardır.

Bu Mərkəzin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılan vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.

Bir sözlə, vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların əsasən dövlət orqanlarında vətəndaşların qrup halında və fərdi qaydada qəbul edilməsinə artıq icazə verilib. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vətəndaşların səyyar qəbulları həyata keçirilməkdədir. Eyni zamanda, Prezident Administrasiyasının struktur bölmələrinin rəhbərləri tərəfindən də vətəndaşlar qəbul ediləcəklər.

Qeyd edək ki, ötən il Prezident Administrasiyasına daxil olan müraciətlərin 60 faizi ərizələrdən, 39 faizi şikayətlərdən və təkliflərdən ibarət olub. Müraciətlər əsasən sosial müdafiə, İkinci Qarabağ müharibəsi və onun nəticələri, hüquq-mühafizə orqanlarının, məhkəmələrin fəaliyyəti, əfv məsələləri, səhiyyə xidmətləri, torpaq məsələləri və işğaldan azad edilmiş ərazilərlə bağlı olub. Bu müraciətlərə operativ baxılaraq müvafiq kömək göstərildiyinə görə dövlətimizin başçısı İlham Əliyevin ünvanına həmin dövrdə 30 minə yaxın minnətdarlıq məktubu daxil olub.

qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait vardır.

Vətəndaşlar qəbulla yanaşı, Prezident Sarayına ənənəvi qaydada, yaxud "president.az" rəsmi səhifəsi vasitəsilə elektron məktubla da müraciət edə bilərlər.

Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin hər biri hərtərəfli təhlil olunur və qaldırılan bütün məsələlərə operativ qaydada baxılır.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin yumşaldılması barədə qəbul etdiyi qərara



## Prezident Silahlı Qüvvələr haqqında qanuna dəyişikliyi təsdiqləyib

**"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik təsdiqlənib.**

Dəyişikliklə bağlı qanunu Prezident İlham Əliyev imzalayıb.

Dəyişikliyə əsasən, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № I, maddə 23) 9.6-cı maddəsində "Silahlı Qüvvələrin dinc, real təhdid, səfərbərlik və müharibə (silahlı münaqişə)" sözləri "Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə)" sözləri ilə, "tələbat" sözü "təminat" sözü ilə əvəz edilib.

## ATƏT sədri Azərbaycana səfər edəcək

**ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri Zbiqnev Rau yüksək səviyyəli rəsmilərlə görüşlər keçirmək üçün martın 29-dan aprelin 1-dək Gürcüstan, Azərbaycan və Ermənistana səfər edəcək.**



Qurumdan verilən məlumata görə, Z. Rau Gürcüstanda prezident Salome Zurabişvili, baş nazir İrakli Qaribaşvili, baş nazirin müavini və xarici işlər naziri David Zalkaliani və parlament sədrinin birinci müavini Giorgi Volski ilə görüşəcək.

O, Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramovla görüşəcək.

Ermənistanda Rau prezident Vaaqn Xaçaturyan, baş nazir Nikol Paşinyan və xarici işlər naziri Ararat Mirzoyanla görüşəcək.

Səfər Cənubi Qafqaz regionunda dinc əməkdaşlıq, dialoq və sabitliyin təşviqinə yönələcək.

# Vladimir Solovyov Əflatun Amaşova məktub göndərilib

## Rusiya Jurnalistlər İttifaqı Azərbaycan Mətbuat Şurasına cavab verib

**Rusiya Jurnalistlər İttifaqı Azərbaycan Mətbuat Şurasının Azərbaycanın kütləvi informasiya vasitələrinin Rusiya ərazisində yayımının bloklanması ilə əlaqədar bəyanatına reaksiya verib.**

**Mətbuat Şurasından (MŞ) "Şərq"ə bildirilib ki, bununla bağlı MŞ sədri Əflatun Amaşova ittifaqın sədri Vladimir Solovyovun imzası ilə məktub göndərilib.**




Məktubda bildirilib ki, Rusiya Jurnalistlər İttifaqı Azərbaycan Mətbuat Şurasının məlum bəyanatı ilə tanış olub. Sənəddə müxtəlif fikir, düşüncə və baxışların konstruktiv dialoqa və qarşılıqlı hörmət prinsipinə xələl gətirməməsinin vacibliyinin ittifaqa üzv təşkilatlar, Rusiyanın müxtəlif bölgələrindən olan jurnalistlər tərəfindən dəstəkləndiyi vurğulanıb və İttifaqın Şura ilə mövcud istiqamətdə dialoqa hazır olduğu önə çəkilib.

RJU eyni zamanda hadisə və proseslərin obyektiv işıqlandırılmasının ölkələrdə, regionlarda əhalinin vəziyyətinin düzgün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını da diqqətə çatdırıb. Qurum bu prinsipə söykənərək Azərbaycan əhalisinin Ukraynada baş verən proseslərdən obyektiv şəkildə məlumatlandırılmasının vacibliyindən söz açıb. Buna görə sənəddə Azərbaycan Mətbuat Şurasının Azərbaycan media məkanının Rusiya tərəfindən irəli sürülən baxışlarla tanışlığına kömək göstərməsinin, beləliklə Azərbaycan auditoriyası üçün tam mənzərənin formalaşmasına dəstəyin zəruriliyi üzərində dayanılıb.

Rusiya Jurnalistlər İttifaqının məktubunda həmçinin qurum tərəfindən ən qısa zamanda Bakıya səfər təşkil etməyə, Rusiya Jurnalistlər İttifaqının üzvləri və rusiyalı ekspertlər tərəfindən vəziyyəti dəyərləndirmək üçün müzakirələr aparmağa hazırlıq ifadə olunub. "Əminik ki, biz birlikdə yaranmış müvəqqəti çətinlikləri aradan qaldıra, ənənəvi dostluq və əməkdaşlıq əlaqələrini davam etdirə biləcəyik", - deyə məktubda vurğulanıb.

**Sənan**

# Ceyhun Bayramov Ştefan Mayerlə görüşüb

## Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər müzakirə olunub

**28 mart 2022-ci il tarixində Almaniyaya işgüzar səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının Elm və Siyasət Fondunun Alman Beynəlxalq siyasət və Təhlükəsizlik İnstitunun direktoru Ştefan Mayer və institun elmi tədqiqatçıları ilə dəyirmi masa formatında görüşüb.**



Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, eləcə də ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı, beynəlxalq aləmdə və regionda baş verən proseslərə dair geniş fikir mübadiləsi aparılıb.

Tərəflər, həmçinin Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında əməkdaşlıq perspektivləri, enerji sahəsində strateji tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsi və üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədə yaranmış yeni reallıqlar, davamlı sülhə nail olunmasına dair imkanlar və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı Azərbaycanın mövqeyi barədə qarşı tərəfə ətraflı məlumat verib. Bölgədə sülh və sabitliyin təmin olunması üçün ilk növbədə imzalanmış üçtərəfli bəyanatların tam icra olunmasının vacibliyi vurğulanıb.

Sual cavab formatında davam edən görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

**Aygün**

# Dünyada yeni düzən formalaşır

## Azərbaycan qazı Avropa üçün yeni alternativ mənbə rolunu oynayacaq






**ABŞ bu il Avropaya əlavə olaraq 15 milyard kub metr sıxılmış qaz ixrac edəcək. Məqsəd qədim qitənin Rusiyadan enerji asılılığının daha tez azaldılmasına nail olmaqdır. Məlumat üçün deyək ki, 552 milyard kub metr illik qaz istehlakı olan Avropa Birliyinin idxalında Rusiyanın 40 faizlik dominant payı var.**

Amerika 2030-ci ilədək Avropaya əlavə 50 milyard kub metr mavi qaz göndərməyi hədəfləyir. Rusiya-Ukrayna müharibəsi fonunda Qərb heç zaman müşahidə olunmayan birlik nümayiş etdirir. Vaşinqton Rusiyaya tətbiq edilən sanksiyalar kontekstində daha çox ölkəni bu əməkdaşlıq platofrmasında görmək niyyətindədir.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, Avropa Birliyi üçün hazırda enerji təhlükəsizliyini möhkəmləndirmək baxımdan əlavə mənbələr Azərbaycan və Əlcəzair hesab olunur.** Deputatın sözlərinə görə, 2.6 trilyon kub metr ehtiyatı və illik 43.9 milyard kub metr hasilatı olan Azərbaycan 2020-ci ilin sonundan Avropaya qaz ixracatına başlayıb: "2022-ci ildə Avropaya ən azı 9.1 milyard kub metr mavi qaz nəql etməyi planlaşdıran Azərbaycan artıq 10 milyard kub metr qazı 2020-ci ilin dekabrından bəri qədim qitəyə çıxarıb. Cənub Qaz Dəhlizinin ikinci fazasında Azərbaycan Avropaya 20 milyard kub metr qaz nəql edə biləcək. Dəhlizin reallaşması bir daha təsdiq etdi ki, çoxtərəfli əməkdaşlıq formatını seçən Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələrindən yalnız qonşu dövlət olan Gürcüstan və Türkiyə deyil, bir sıra Avropa ölkələri də faydalana bilirlər. Cənub Qaz Dəhlizinin bütövlükdə ötürülmə qabiliyyəti 31, 5 milyard kub metr olacaq. Bu da praktik olaraq, Avropa üçün yeni alternativ mənbə rolunu oynayacaq. Göründüyü kimi, regionda və bütövlükdə dünyada yeni düzən formalaşır. Bu mərhələdə çoxşaxəli xarici siyasətə üstünlük verən Azərbaycanın geo-siyasi və geo-iqtisadi mövqeyi daha da güclənəcək".

**İsmayıl**

**Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov 84 yaşında vəfat edib. Sabiq prezident 1 Fəxri Xiyabanda dəfn olunub. Dəfn mərasimində mərhumun ailə üzvləri iştirak edib. O, Xalq şairi Cabir Novruzun məzarı yanında torpağa tapşırılıb. Sabiq prezident Ayaz Mütəllibovla Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində vida mərasimi keçirilib.**

Vida mərasimində mərhumun yaxınları, deputatlar - Vahid Əhmədov, Tahir Kərimli, Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, ictimaiyyət nümayəndələri iştirak ediblər. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın adından sabiq prezident



# Ayaz Mütəllibov I Fəxri Xiyabanda dəfn olundu

## Keçmiş prezident Xalq şairi Cabir Novruzun məzarı yanında torpağa tapşırılıb

Ayaz Mütəllibovun vəfatı ilə əlaqədar əklil göndərilib. Keçmiş prezidentin köməkçisi Qulu Həsənoğlu deyib ki, Ayaz Mütəllibovun ailə üzvləri və yaxınları üçün ağır bir gündür: "Azərbaycan ziyalısı, sülhpərvər bir insan bu gün tarixə qovuşdu. O, özü ilə bərabər böyük bir tarix apardı".

**Daha sonra deputat Vahid Əhmədov çıxış edib və sabiq prezidentlə bağlı xatirələrindən danışıb:** "Ayaz Mütəllibov Azərbaycanın siyasi-ictimai həyatında çox ciddi işlərə imza atıb. Hesab edirəm ki, onun o dövrdə Azərbaycan iqtisadiyyatının dirçəlməsində böyük xidmətləri olub. Ölkəmiz məhz onun dövründə BMT-yə üzv olub. Ayaz Mütəllibovun vida mərasimi dövlət səviyyəsində qeyd olunur. Mən bunun üçün dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür edirəm".

**Millət vəkili Tahir Kərimli isə bildirib ki, o, Azərbaycanın ilk prezidenti olmuşdu və bu, böyük bir hadisədir:** "Onun dövründə Çaykənd əməliyyatı keçirildi. Torpaqlarımızın böyük hissəsi erməni daşnaklarından təmizləndi. 1990-cı ildə mən İsmayıllıdan deputat seçilən zaman Ayaz Mütəllibovun demokratik baxışı olmasaydı, bəlkə də seçilməyimə icazə verilməzdi. Mən onun ailəsinə dərin hüznlə başsağlığı verirəm. Yeri cənnət olsun".

Mərasimdə çıxış edən sabiq prezidentin oğlu Zaur Mütəllibov özü və ailəsi adından Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyevaya göstərdikləri diqqətə görə təşəkkür edib. Bildirib ki, atası bir aydır Mərkəzi Kliniki Xəstəxanada müalicə alırmış: "Beyin təzyiqi var idi. Atamı əvvəlcə operativ müalicə etdilər. Özünü yaxşı hiss edirdi. Amma sonradan müalicəsi uğurlu olmadı. Yeriməyində də problemlər yarandı. Həmçinin yaşına görə də xəstəlikləri var idi. Bu xəstəliklər də onu narahat edirdi. Kiçik beyin insultu və mikro infarkt keçirmişdi".

**Nəvəsi Tahir Mütəllibov isə jurnalistlərə açıqlamasında babasının vəfatı ilə bağlı fikirlərini bölüşüb:** "Çox görkəmli və hamını sevən bir insan idi. Bizim üçün çox böyük bir itkidir. Son dövrlərdə siyasət haqqında söhbətlərimiz olurdu. Sonuncu dəfə 1 ay bundan əvvəl danışmışdıq. Son vaxtlar vəziyyəti ağır idi, danışmaqda çətinlik çəkirdi. Sonuncu dəfə bir ay əvvəl danışmışdıq. Səhhətində yaranan problemə görə tez-tez danışa bilmirdik".

**İsmayıl**

# Saytların bloklanması antidemokratik addımdır

## Akif Aşırlı: “Rusiya insanları alternativ informasiya mənbələrindən məhrum edir”



**Azərbaycanın bir çox xəbər saytlarına giriş Rusiya ərazisində bloklanıb. Rusiyanın müstəqil, alternativ informasiya mənbələrinə qarşı bu münasibəti Azərbaycanın tanınmış media ekspertləri, jurnalistlərinin qınağına səbəb olub.**

Rusiyanın bu addımını Modern.az-a şərh edən ”Şərq” qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə heyətinin üzvü Akif Aşırlı çağdaş dönəmdə informasiya mübadiləsinin zorən qarşısının alınmasını antidemokratik addım kimi dəyərləndirib:

”Rusiyanın informasiya resursları zaman-zaman Azərbaycanın əleyhinə fəaliyyət göstərib, anti-Azərbaycan siyasəti yeridib. Ərazi bütövlüyünü sual altına almağa çalışıb, daxildə müxtəlif münaqişə ocaqları yaratmaq həvəsində, istəyində olublar. 44 günlük Vətən savaşında Rusiyanın bir sıra kütləvi informasiya vasitəsinin ədalətsiz, peşə prinsiplərindən kənar fəaliyyətini gördük”.

*A.Aşırlı Azərbaycanın bir neçə xəbər saytının Rusiyada girişinin bloklanmasını azad media prinsiplərinə zidd davranış adlandıraraq bu hadisəni pisləyib:*

”Rusiyanın bu davranışı insanların alternativ informasiya mənbələrindən məhrum olunması deməkdir. Bu barədə Azərbaycan jurnalist təşkilatları insan hüquq və azadlığı qurumlarını, beynəlxalq media mərkəzlərini məlumatlandırmalı və etirazlarını bildirməlidirlər”.

# Vətəndaşların problemlərinə sürətli reaksiya veriləcək



Çağrı Mərkəzi həm də dövlət orqanlarının işləməsinin göstəricilərini müəyyənləşdirə bilən parametr olacaq

**Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin Çağrı Mərkəzi istifadəyə verilib.**

**Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər.**

Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir. Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır.

Yeni istifadəyə verilən mərkəz vətəndaşlara hansı imkanlar yaradacaq?

*Bu barədə ”Şərq”ə danışan ”Konstitusiya” Araşdırmalar Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev bildirib ki, bu mərkəz dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması istiqamətində bizim alətlərimizdən birinə çevriləcək.*

Onun sözlərinə görə, vətəndaşlarımızın birbaşa Prezident Administrasiyası ilə kommunikasiya yaratmaq imkanı olacaq.

”Əvvəllər bu fəaliyyəti genişmiqyaslı şəkildə həyata keçirmək mümkün deyildi. İndi isə yeni, innovativ alətlər tətbiq olunur. Bu, operativliyi və əks-əlaqə sistemini daha da gücləndirəcək. Daxil olan müraciətlər, şikayətlər sürətli şəkildə müvafiq strukturlara ötürüləcək.

Eyni zamanda vətəndaşların müraciətlərlə bağlı konstitusion hüquqlarının reallaşdırılmasına daha geniş təminatlar verəcək. Bununla yanaşı digər alətlər də qalacaqdır. Yəni vətəndaşlarımız müxtəlif alternativlər vasitəsilə öz problemlərini çatdırmaq imkanına malik olacaqlar.

Bu həm də dövlət orqanlarının işləməsinin göstəricilərini də müəyyənləşdirə bilən parametr olacaq. Çünki vətəndaş müraciətləri adətən hər hansı dövlət orqanının işinin təkmilləşdirilməsi və ya pozulmuş hüququn bərpası ilə bağlı olur”.

*Hüquqşünas eyni zamanda qeyd edib ki, bu addım dövlət orqanlarına inam və etimadın gücləndirilməsinə də əlavə impulslar verəcəkdir:*

”Kommunikasiyanın qurulması birbaşa vətəndaşların dövlət orqanları və vəzifəli şəxslərə etimadını gücləndirir. Həmçinin dövlət qurumlarının və məmurların məsuliyyət və cavabdehliyi də artacaq. Çünki onların fəaliyyəti ilə bağlı müraciətlərə daha sürətli və yüksək səviyyədə baxılacaq. Əsas məqamlardan biri də odur ki, cəmiyyət bu məsələlərlə bağlı mütəmadi olaraq məlumatlandırılacaq.

Bütövlükdə ölkədə vəziyyətin dinamikasını birbaşa vətəndaşdan məlumat almaqla müəyyənləşdirmək mümkün olacaq. Daxil olan məlumatlar emal olunacaq və bütövlükdə problemlərin nədən ibarət olması ilə bağlı təhlillərə gətirib çıxaracaq. Bu sayədə böyük data baza yaranacaq. Həmin məlumat bazası hökumət tərəfindən mühüm qərarların qəbul olunması prosesinə təsir göstərəcək. Hansı sektorda və ya hansı rayonlarda problem var və nədən ibarətdir. Bu barədə elektron xəritə də yaradıla bilər. Nəticə etibarilə daha keyfiyyətli və vətəndaşa ünvanlanan qərarlar qəbul oluna bilər.

Əlavə olaraq bu, vətəndaş iştirakçılığı və ictimai nəzarətin gücləndirilməsi üçün yeni imkanlar yaradacaq, vətəndaşların şikayətlərlə yanaşı təkliflər vermək imkanları da olacaq”.

**Sənan İsmayıl**



**“İlk danışıqlar nəticəsiz olacaq. Yekun sülhdə Putin və Zelenski Türkiyədə bir araya gələ bilər”**

# Ümidlər İstanbuladır

## Ukrayna-Rusiya danışıqları Türkiyədə aparılacaq

**Ukrayna və Rusiya Türkiyədə üçgünlük danışıqlar raundunun keçirilməsi ilə bağlı razılığa gəlib. Ukrayna nümayəndə heyətinin üzvü David Araxamiya deyib ki, videoformatda keçirilən danışıqda növbəti canlı raundun Türkiyədə 28-30 mart tarixlərində keçirilməsi razılaşdırılıb. Qeyd edək ki, tərəflər arasında sonuncu görüş martın 21-də videokonfrans formatında keçirilmişdi.**

**“Rusiya buna görə müharibə başladıb - biz hazırıq!”**

Ukrayna Prezidenti Vladimir Zelenski deyib ki, Kiyev təhlükəsizlik qarantı və neytral statusu müzakirə etməyə hazırdır: ”Təhlükəsizlik qarantı, neytrallıq, ölkəmizin nüvəsiz statusu... Biz buna getməyə hazırıq. Bu, ən başlıca maddədir. Xatırladığım qədərilə bu, Rusiya üçün prinsipial məsələ idi. Bildiyim qədəri ilə bunlardan dolayı müharibəni başlatmışdılar”. Onun sözlərinə görə, imzalanacaq sənəd ciddi razılaşma olmalıdır, növbəti Budapeşt memorandumu kimi kağız parçası deyil. Zelenski, həmçinin onu da xatırladıb ki, neytral statusun qəbulu üçün referendum keçirilməli, Konstitusiya dəyişikliyi qəbul edilməlidir. Bunun üçünsə ən azı bir il vaxt lazımdır.

**”Müharibəni bitirmək üçün Ukraynanın güzəşti budur”**

Zelenski bəyan edib ki, qurbanların sayını maksimal sayda azaltmaq, müharibənin müddətini qısaltmaq üçün - Rusiya qoşunları kompromis ərazilərə çıxarmalıdır: ”Bu, 24 fevraldan - hücumdan əvvələ qayıtmaqdır. Mən başa düşürəm ki, Rusiyanı ərazini tam azad etməyə məcbur etmək mümkün deyil, bu, Üçüncü Dünya müharibəsinə gətirib çıxaracaq. Mən hər şeyi gözəl anlayıram və bunun fərqindəyəm. Ona görə deyirəm: bu, kompromisdir. Hər şeyin başladığı yerə qayıdın və orada Donbassla bağlı çətin məsələləri həll etməyə çalışacağıq”.

**“Zelenski: Sülh istəməsəydik, indi Krımda olardıq!”**

Ukrayna rəhbəri qeyd edib ki, bir ukraynalı əsgər öz torpağında olduğuna və onu müdafiə etməyə həvəsli olduğuna görə on rus əsgərini döyür: ”Amma biz dəqiq sülh istəyirik. Çünki istəməsəydik, inanın ki, sabah Krımda olardıq. Biz onları öz ərazimizdə döyürük. Bir əsgərimiz on rus əsgərini döyür, çünki onlar burada nə etdiklərini başa düşmürlər”.

**“21-ci əsrdə 31 gündür ədaləti təmin edə bilmirik - Zelenski”**

Zelenski vurğulayıb ki, 21-ci əsrdə ədaləti bərpa etməyə çalışır, amma 31 gündür, hələ də təmin edə bilmir: ”Rusiyanın Ukraynaya hücumu qarşısında müdafiəmiz davam edir. Xalqımızla birlikdə sülhü qorumağa çalışırıq. Qətər hasilatı artırmalı, lazımi tələbatı ödəməli və Rusiyaya enerjinin silah olmadığını göstərməlidir. Rusiya nüvə silahından istifadə etməklə hədələyir. Belə getsə, bu müharibə təkcə bir ölkəyə deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş olacaq”. O, ölkəsində 1 milyondan çox müsəlmanın yaşadığını, mülki şəxslərin davamlı olaraq hədəfə alındığını bildirib: ”Qocalar, qadınlar və uşaqlar sığınacaqlarda yaşayır. Rusiya şəhərlərə humanitar yardımların belə getməsinə icazə vermir”.

**“Putin heç vaxt Zelenski ilə görüşməkdən imtina etməyib”**

Rusiya Xarici işlər naziri Sergey Lavrov deyib ki, Putinlə Zelenski arasında görüş lazımdır. Lakin Rusiyaya danışıqlarda konkretlik lazımdır: ”İndi Putin və Zelenski arasında fikir mübadiləsi üçün görüş qeyri-məhsuldar olardı”. Lavrov Rusiya-Ukrayna danışıqlarında konkret nəticələr əldə olunandan sonra Putin və Zelenskinin bu nəticələri təsdiqləmək üçün görüşə biləcəklərini söyləyib. O, danışıqların İstanbulda əyani formatda keçiriləcəyini söyləyib. Lavrov Rusiyanın Ukrayna ilə danışıqların növbəti raundunun uğurlu olmasında maraqlı olduğunu əlavə edib.

**“Danışıqların İstanbulda keçirilməsi prosesin texniki mərhələdən siyasi müstəviyə keçməsidir”**

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Ukrayna-Rusiya savaşı bir aydan çoxdur davam edir.** Tərəflər arasında bir neçə görüş baş tutsa da, ciddi nəticə əldə etmək mümkün olmayıb. Danışıqların ciddi nəticə verməsi üçün hərbi əməliyyatlarla yanaşı, neytral ölkə şərti də vacibdir. Digər ölkələrdən fərqli olaraq Türkiyə prosesdə daha aktiv rol oynayır. Ankaranın vasitəçiliyi həm Kiyev, həm də Moskva tərəfindən normal qəbul edilir. Rusiya Prezidenti V.Putin ilə Türkiyə lideri R.T.Ərdoğan arasında aparılan danışıqlarda müsbət irəliləyiş ehtimalı var. Hər halda İstanbul təmasları, Belarusdakı mənasız görüşlərdən daha faydalı ola bilər. Çünki Türkiyə kifayət qədər tərəfsiz, müstəqil və nüfuzlu ölkədir. Gedişat Ukrayna hərbçilərinin işğalçı rus ordusuna vurduğu zərbənin miqyasından asılı olacaq. Danışıqların İstanbulda keçirilməsi prosesin texniki mərhələdən siyasi müstəviyə keçməsidir. Türkiyə aktiv şəkildə vasitəçiliyə başlamaqla Qara dəniz bölgəsində mövqeyini gücləndirməklə yanaşı, Cənubi Qafqazda əsas söz sahibi olacaq. Ankaranın vasitəçiliyi tərəflər arasında danışıqların müsbətə doğru dəyişməsinə gətirə bilər. Çünki Rusiya ordusu irəliləyə bilmir və müdafiə mövqeyinə çəkilib. Putin danışıqlar prosesində bu ”əməliyyatla” öz məqsədlərinə çatdığını və Ukraynanın neytral ölkə və NATO-ya üzv qəbul edilməyəcəyini vurğulamaqla atəşkəsə gedə bilər. Amma çalışacaq ki, Donbassla Krım arasında quru yolu təmin edib əlində saxlasın”.

**“Türkiyənin vasitəçiliyi və aktivliyi Ukraynanın məğlubiyyətində maraqlı olmamasından irəli gəlir”**

Analitik qeyd edib ki, Zelenski ölkəsinin şərtlərini açıqlayıb, Moskva da əvvəlki sərt tələblərindən geri çəkilib: ”Amma Qərb, xüsusilə Vaşinqton müharibənin bir müddət davam etməsində maraqlıdır. Bununla Rusiyanın tamamilə defolt vəziyyətinə gətirilməsi təmin edilməlidir. Putin də Ukraynada uduzması və müharibənin davam etməsini onun əleyhinə işlədiyinin fərqindədir. Geopolitik qarşıdurmada tam məğlubiyyət Rusiyanı izolyasiyasını dərinləşdirəcək. Ona görə də Türkiyənin vasitəçiliyi ilə keçirilən danışıqlarda Moskva maraqlı görünür. İlk danışıqlar nəticəsiz olacaq. Yekun sülhdə Putin və Zelenski Türkiyədə bir araya gələ bilər. Türkiyənin vasitəçiliyi və aktivliyi Ukraynanın məğlubiyyətində maraqlı olmamasından irəli gəlir. Əgər Rusiya Türkiyənin vasitəçiliyində manipulyasiya edərsə, Ankara Ukraynaya tam hərbi dəstək verə və Suriyada Rusiyaya qarşı ikinci cəbhə aça bilər. Ona gorə də Moskva Ankara ilə hesablaşmaq məcburiyyətindədir”.

**İsmayıl Qocayev**

İsmayıl Qocayev

# Fərrux yüksəkliyi ordumuzun nəzarətindədir

## Artıq Xocalıdan, Xankəndidən danışa bilərik

**2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanata uyğun olaraq Xocalının Fərrux kəndi bölgədə müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının nəzarətinə keçmişdi. Ancaq ermənilərin qanunsuz silahlı dəstələri 30 il əvvəlki kimi yenidən Fərruxdan atəş açmağa və regionda atəşkəsi pozmağa başladı. Nəticədə Azərbaycan Ordusu əməliyyat keçirərək ərazini qanunsuz silahlılardan təmizlədi.**

Lakin bundan sonra Rusiya Müdafiə Nazirliyi öz ifadəsi elə desək, ”Dağlıq Qarabağ münaqişəsi zonası”nda sülhməramlı kontingentinin fəaliyyəti haqqında məlumat yayıb. Məlumatda qeyd olunub ki, ”martın 24-dən 25-dək Azərbaycan Respublikasının silahlı qüvvələri Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının müddəalarını pozaraq, Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasına daxil olub və ”Dağlıq Qarabağ” ərazisində müşahidə məntəqəsi qurub”. Rusiya tərəfi vurğulayıb ki, Moskva sülhməramlı kontingentinin komandanlığı vəziyyətin həlli və qoşunların ilkin mövqelərinə qaytarılması üçün tədbirlər görür: ”Qoşunların çıxarılması üçün Azərbaycan tərəfinə müraciət göndərilib”.

Məlum bəyanat ölkə ictimaiyyəti və rəsmi Bakı tərəfindən çox sərt qarşılanıb. Rusiya Müdafiə Nazirliyinin məlumatı üçtərəfli sazişlə yanaşı, həmçinin 2022-ci il fevralın 22-də imzalanmış ”müttəfiqlik haqqında” Bəyannamənin kobud şəkildə pozulması kimi dəyərləndirilib. Həmçinin, açıqlamada yenidən ”Dağlıq Qarabağ” və ”Dağlıq Qarabağ respublikası” ifadələrinin işlədilməsinin yolverilməz təxribat olduğu vurğulanıb. Qeyd olunub ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünə qarşı Rusiyanın bu cür təhdidləri qəbuledilməzdir.

Rusiya tərəfinin absurd bəyanatına Azərbaycan Müdafiə Nazirliyi də cavab verib. Nazirlikdən bildirilib ki, açıqlamada əks olunan məqamlar həqiqətə uyğun deyil. Bəyan edilib ki, Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib: ”Azərbaycan Ordusunun bölmələrinin həmin mövqelərdən geri çəkilməsi haqqında məlumat həqiqəti əks etdirmir. Ordumuz əməliyyat şəraitinə tam nəzarət edir. Bir daha xatırlatmaq istərdik ki, Azərbaycan ərazisində ”Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur. Bu ifadənin işlənməsi Rusiya tərəfindən tanınmış və qəbul edilmiş ərazi bütövlüyünə qarşı hörmətsizlikdir. Azərbaycanın Xocalı rayonunda ”Furux” adlı kənd yoxdur. Qeyd edilən kəndin adı Fərruxdur”.



“Yaxın həftələrdə başqa ərazilərlə bağlı məlumatlar olacaq. Bu istiqamətdə ciddi işlər görülür, rus sülhməramlıların iştirakı ilə ermənilər arasında təbliğat işi aparılır”

Azərbaycan Müdafiə Nazirliyinin məlum reaksiyasından sonra Rusiya MN-in saytından həmin açıqlama silinib. Ekspertlərə görə, Kremlin qərəzli bəyanat yayması səbəbsiz deyil.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov ”Şərq”ə açıqlamasında bildirib ki, proses 1 aya yaxındır davam edirdi. Polkovnik bildirib ki, Azərbaycan tərəfi konkret bəyan etmişdi ki, həmin ərazilərdə ölkəmizin suverenliyi dərhal bərpa olunmalıdır.** Hətta bununla bağlı bölgədə yaşayan ermənilərə müraciət də edilmişdi. Xəbərdarlıq olunmuşdu ki, qeyri-qanuni silahlı birləşmələr ərazini tərk etməlidir. Qalmaq istəyən sivil ermənilər isə Azərbaycanın qanunları çərçivəsində yaşamağı qəbul etməlidir: ”Əfsuslar olsun ki, separatçılar bu məsələni mümkün qədər yubatdılar. Nəticədə Azərbaycan dövləti qəti addımlar atmaq məcburiyyətində qaldı. Artıq elan olunub ki, Fərrux kəndi və yüksəkliyi Azərbaycan Ordusunun nəzarəti altındadır. Rusiya sülhməramlıları prosesə mane olmaq üçün maksimum dirəniş göstərdilər. Lakin Müdafiə Nazirliyi aldığı tapşırığı tam şəkildə və uğurla yerinə yetirdi. Ermənilərin bir-iki cəhdinin qarşısı Ordumuz tərəfindən dərhal alındı. Fərrux kəndinin bizdə olması o deməkdir ki, artıq Xocalıdan, Xankəndidən danışa bilərik. Əslində 2020-ci ildə bu məsələni həll etməliydik. Rusiyanın müdaxiləsi prosesi yubatdı, hədəfləri arxa plana keçirtdi. Rusiya Müdafiə Nazirliyinin absurd bəyanatı da kobud müdaxilə cəhdi idi. Lakin rəsmi Bakının sərt reaksiyasından sonra Kreml günün sonunda bəyanatı nazirliyin saytından çıxartdı. Ordumuz qısa zamanda və ciddi güc sərf etmədən Fərrux yüksəkliyini nəzarət altına aldı. Yaxın həftələrdə başqa ərazilərlə bağlı məlumatlar olacaq. Bu istiqamətdə ciddi işlər görülür, rus sülhməramlıların iştirakı ilə ermənilər arasında təbliğat işi aparılır. Qanuni tələblərimiz yerinə yetirilərsə, problem yaşanmaz. Əks halda separatçıların təxribatçı hərəkətlərinə Fərrux yüksəkliyində olduğunu kimi çox sərt cavab veriləcək”.



# Conson Makrondan daha fəaldır

## Qərbə Rusiyanın taqətdən düşməsi lazımdır

**"Makron Rusiyadan qorxur, vəssalam". Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib. O bildirib ki, Fransa Prezidenti Emmanuel Makron Ukraynaya hərbi dəstəkdən imtina edib. Ukrayna lideri müsahibəsində Böyük Britaniyanın Baş naziri Boris Consonun daha fəal olduğunu bildirib:**

"Onlar silah göndəriblər. Çünki britaniyalılar Ukraynanı bütövlükdə dəstəkləyirlər. Düzünü deyəcəyəm. Conson daha çox yardım edən liderdir. Britaniya bizim tərəfdədir. O, tarazlıq yaratmağa cəhd etmir. Britaniya yaranmış vəziyyətə alternativ çıxış yolu görmür. Britaniya Ukraynanın udmasını, Rusiyanın isə uduzmasını istəyir. Ancaq müharibənin uzanıb-uzanmamasını Britaniyanın istəyib-istəmədiyini deyə bilmərəm". Zelenskinin sözlərinə görə, Almaniya gözləmədədir və Ukrayna ilə Rusiyaya münasibətdə tarazlıq yaratmaq istəyir: "Onların Rusiya ilə münasibətləri çoxdan davam edir. Almaniya vəziyyətə iqtisadi prizmadan yanaşır. Onlar davamlı olaraq yardım edirlər. Fikrimcə, hadisələrin inkişafına, əsasən vəziyyətə uyğunlaşmağa çalışırlar. Almaniyada vəziyyətin ölkələrə necə təsir etdiyinə də baxırlar".

Fransa Prezidenti Emmanuel Makron

> "Ona görə Ukraynaya maksimum dəstək olacaqlar ki, müharibə uzansın"

isə Rusiya Prezidenti Vladimir Putin üçün "qəssab" ifadəsini işlətməyəcəyini bildirib. Makron deyib ki, avropalılar coğrafiyasını və tarixini unutmamalıdır. Fransa rəhbəri Putinlə görüşə davam etdiyini xatırladıb: "Ukraynanın Mariupol şəhərində humanitar əməliyyat keçirmək barədə Putinlə telefonla danışacam".

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Zelenskinin Qərbdən və Avropadan incik olmasının haqlı tərəfləri var. Ekspertə görə, Ukrayna NATO-ya ümid edərək Rusiya ilə qarşı-qarşıya gəlmişdi, nəticə göz önündədir:** "Avropanın aparıcı dövlətlərindən biri olan Fransanın başçısı E.Makronun ehtiyatlı davranışını da başa düşmək olar. Çünki o, tək belə davranmır. Amerika və NATO-nun digər ölkələri də eyni reaksiyanı göstərir. Bu davranışda həqiqət payı yüksəkdir. Hesab edirəm ki, Makronun cavabı Avropa ölkələrinin əksəriyyətinin mövqeyini əks etdirir. Zelenski təbii olaraq bütün ölkələrdən, xüsusən də, NATO-dan kömək istəyir və həmin ölkələrdən də müəyyən dəstək alır. Amma bu, yetərli deyil. Zelenski gənc və təcrübəsiz siyasətçi olsa da, özünü ləyaqətli aparır. Zelenskinin dövlət başçısı kimi ölkənin başında durması dünya ictimaiyyətinin gözündə onu artıq bir qəhrəmana çevirib".

**A.Qasımov bəyan edib ki, Zelenskinin Amerika, Fransa və ümumiyyətlə NATO-dan tələblərinə gələndə isə bu tələblərin yerinə yetirilməsinin mümkün olmadığı hamıya bəllidir:** "Bura Ukraynanın hava sahəsinin bağlanması, təyyarələrin verilməsi aiddir. Bu tələblər artıq Rusiyaya qarşı açıq müharibə deməkdir. Hesab etmək olar ki, Zelenski də bunların fərqindədir. Sadəcə o, siyasi gediş edib, həm NATO, həm də Rusiya tərəfləri arasında manipulyasiya edir. Bu hadisələr arasında əsas rolu Ukrayna xalqı oynayır. Hesab edirəm, Zelenski Ukrayna xalqına daha çox bel bağlamalıdır, nəinki Qərbə və NATO-ya. Qərb onsuz da istəyinə nail olub. Rusiyanı uzun və yorucu müharibəyə cəlb edə bilib. Ona görə də istəsə də, istəməsə də Ukraynaya maksimum dəstək olacaq ki, bu müharibə tez başa çatmasın. Onlara Rusiyanın taqətdən düşməsi lazımdır".

**İsmayıl Qocayev**

# Azərbaycanda "5-ci kolon" aktivləşib

## Pənah Hüseyn: "Onların qarşısı dərhal alınmalıdır"

**Son vaxtlar Azərbacanda "5-ci kolon"un nümayəndələri aktivləşiblər. İstər Rusiyanın Ukraynaya hücumu ərəfəsində Azərbaycan xalqının Ukraynaya dəstəyi, istərsə də tarixi ərazimiz olan Fərrux kəndinin Azərbaycanın nəzarəti altına keçməsindən sonra məlum prosesi aydın müşahidə etmək olur.**



Fikirlərimizin təsdiqi üçün sosial şəbəkələrin Azərbaycan seqmentinə "göz gəzdirmək" bəs edir. Hətta buna dair bəzi siyasilər və jurnalistlər də status və ya rəylər yazırlar.

**Mövcud durumla bağlı "Şərq"ə danışan sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirib ki, bu, ilk növbədə Rusiyanın Ukraynaya təcavüzü zamanı Azərbaycan cəmiyyətinin təcavüzə qarşı çıxış edib Ukraynanın tərəfində olduğunu nümayiş etdirməsi ilə bağlıdır:** "Ola bilsin, proseslərin gedişində onlara da fəallaşmaq tapşırığı verilib. Amma Azərbaycan konstitusiyasının prinsipləri var. Məsələn, konstitusiyaya görə müharibə təbliğatının aparılması qadağandır. İndi gördüyü kimi Rusiya Ukraynaya qarşı açıq-aydın təcavüzkar müharibə aparır. Bu müharibənin təbliği ilə məşğul olanlar barəsində də qanunla nəzərdə tutulan tədbirlər görülməlidir".

**P.Hüseyn diqqətə çatdırıb ki, hazırda "5-ci kolon"la mübarizədə Azərbaycanın milli vətənpərvər, o cümlədən, siyasi partiyalarda olan qüvvələri bu məsələyə şiddətli şəkildə qarşı çıxıb və hər hansı güzəştə yol verməməlidir:**

"Bu, Azərbaycan cəmiyyətinin özünün də dövlətini qorumaq imumunitetinin olub-olmadığını göstərir. Hesab edirəm ki, hazırda "5-ci kolon" adlanan bir kəsimin Azərbaycan üçün ciddi təhlükə yaratmaq imkanı yoxdur. Yalnız rusların və yaxud onların burdakı əlaltılarının - ermənilərin təcavüzünü gözləyənlər var ki, belə məqamda onlar da hərəkətə keçsinlər. Bu baş verməden onların neytrallaşdırılması istiqamətində şübhəsiz ki, insan hüquq və azadlıqları gözlənilməklə mübarizə aparılmalıdır".

AXP sədrinin sözlərinə görə, bəzi çıxışlarda açıq-aydın Azərbaycanın müstəqilliyi ilə bağlı Konstitusiyamızda təsbit edilmiş prinsipləri şübhə altına alan fikirlər səsləndirən bu şəxslərin qarşısı dərhal alınmalıdı.

**Günəş Mərd**

# Məktəbli formaları hər 3 ildən bir dəyişdiriləcək

## Valideynlər sosial şəbəkələrdə yenə "qiyamət qopardı"





> **Kamran Əsədov:** "Valideynlərin narahatlığını başa düşürəm. Lakin etiraf edək ki, onsuz da hazırkı məktəbli formaları 3 il duruş gətirə bilmir"



**Nazirlər Kabinetinin məktəbli formalarının hər 3 ildə yenilənməsinə dair qərarı sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. Valideynlər vahid məktəbli formasının niyə dəyişikliyə uğradığını, bu azmış kimi 3 ildən bir dəyişiləcəyini narazılıqla qarşılayıblar.**

Məktəbli formalarının yeni modelləri təqdim olunub. Əvvəlki formalardan xeyli fərqli cəhətlər olduğu görünür. Lakin valideynləri narahat edən məktəbli forması hər 3 ildən bir dəyişərsə, onu digər övladlarına geyindirə bilməyəcəkləridir. Aztəminatlı ailə üçün bu, əsaslı narahatlıq sayılır. Sosioloq Lalə Mehralı da NK-nin məlum qərarının ailələr üçün əlavə problem yaradacağını düşünür. Sosioloq bununla bağlı fikirlərini şəxsi feysbuk səhifəsində bildirib:

- Bu işin istehsalının başında duran "müəllim" də hər kimdirsə ona əlavə qazanc mənbəyi yaradanlar, sizə valideynlərin "atəşin salamları" var. Qərarın gülünclüyünü bir tərəfə qoyuram, təsdiq olunan model 3 rəngdə istehsal ediləcək - ağ, bej, mavi. Gülməli olan odur ki, 3 modeldə ətək, 2 modeldə köynək var. Budur vahid forma? Adamın üstündə Allah var, şalvar və gödəkcə bir modeldir, yoxsa neyləyərdik? Hansı məktəb hansı rəngi istəsə onu geyindirəcək şagirdlərinə. Arada biz valideynlər "çujoy-poxmel" gedirik. Əgər məktəblərin daxili nizamnaməsinə görə öz geyim formalarını seçmək ixtiyarı varsa, bu, nə vahid formabazlıqdır? Bədbəxt kasıb, üzünə durub ölmürsən. Böyük qızının formasını gələn il kiçik qızına geyindirmək istəyən valideyn, sən onlardan çox bilirsən? İl ortasında uşağın məktəbini dəyişib başqasına keçirməli olan valideyn, sən iki dəfə kefləndəcəksən.

**L.Mehralının rəyinə münasibət bildirənlər də xeyli əsəbi görünür:**

Təranə Məmmədtağıyeva: Bu, layihə üzərində calışanın biznesidir. Böyük kütlə üzərindən qurduğu biznesdir. Müştəriləri əlində çoxluq şəkildə hazırdır. Yaxşı qazanc gətirəcək biznes. Ölçülmüş, biçilmiş yaxşı biznes. Əgər biznes olmasaydı, sagirdlərə pulsuz veriləcəkdi bu geyimlər. Dövlətimizin varlı olduğuna əsaslanaraq dedim bu sözü.

**Elçin Bayramlı: Hər il fabrik sahibləri zorla yüz minlərlə paltar satıb milyonlar qazanmalıdır axı. Yəqin nazirliyin də burda maraqları var.**

**Təranə Məmmdtağıyeva:** Nazirliksiz olar sizcə bu işlər? Tutaq, mənim fabrikim var və mən sagirdlərə "bu geyimi geyinməlisiniz", deyə bilərəm? Yəqin maraqları var, cümləsi nagüman qoydu məsələni. Açıq-açığına qurulmuş biznesdir.

**Səxavət Hidayətoğlu:** Onsuz da problemləri həll etmirlər, üstündən tullanıb daha da böyüməsinə şərait yaradırlar. Sabah, birisi gün boğazlarından yapışanda ağlayacaqlar ki, bizim nə günahımız vardı ki? Məktəbi ediblər kulis və ticarətxana... Hərçənd, kompüter mütəxəssisliyini oxuyan bir tələbəyə zorla coğrafiya, musiqi, tarix dərsi keçən sistemdən ağıllı nəsə gözləmək özü də anomaliyadır.

**Savalan Talıblı:** Allaha and olsun dəlixanadır. Bunu düşünən azacıq da olsa xalqın sosial durumunu düşünsün. Heç kim anlamır ki, bu paltarı ala bilməyən və övladını məktəbə yola sala bilməyən valideyn var. Gündə bir hoqqa çıxartmaq kimə sərf edir? Niyə bəzi işbazların biznes maxinasiyaları təhsilin başında çatlamalıdır?!

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında vahid məktəbli formalarının modelinin dəyişməsinin gözlənilən olduğunu dedi:**

- Bu, gözlənilən proses idi. Çünki hazırda istifadədə olan vahid məktəbli forması 2010-cu ildə qəbul edilmiş dizayndır. Təklif olunan yeni modellər isə təhsilə maraq qatacaq dizayndır. Əsas üstünlük odur ki, məktəbli qızlar üçün qış aylarında şalvar geyinmək mümkün olacaq. Biz yeni modellərdə həm də müasirləşməni görürük. Bu, yaxşıdır. Məktəbli formaları 1-2 il geyinildikdən sonra yararsız hala düşür *(çünki keyfiyyətsiz tikilir, teztez xarab olur, valideyn də məcbur qalıb yenisini alır. Biznes buna deyirlər - M.R.)*. NK-nin məktəbli formalarının hər 3 ildən bir dəyişdirmək qərarında bu amil nəzərə alınıb. Məktəbli formalarının 3 ildən bir dəyişdirilməsində məqsəd daha keyfiyyətli olmasını təmin etməkdir. Həm də məktəbli formalarını hər məktəbin Pedaqoji Şurası təsdiqləyir. Hesab edirəm ki, bu məsələdə ciddi bir problem yaranmayacaq.

***Valideynlərin iradlarına gəlincə, K.Əsədov "haqlı iraddır", dedi:***

- Amma bunu da nəzərdən qaçırmayaq ki, məktəbli formaları heç də həmişə kiçik bacının, ya kiçik qardaşın ölçülərinə uyğun gəlmir. Bu zaman valideyn onsuz da məcbur qalıb yenisini alır. Valideynlərin narahatlığını başa düşürəm. Xüsusilə aztəminatlı ailələr üçün çətindir. Lakin etiraf edək ki, hazırkı məktəbli formaları onsuz da 3 il duruş gətirə bilmir. Əsas məsələ məktəbli formalarının alınmasına valideynlərin əlçatanlığının təmin edilməsidir. Məncə, qiymətlər əlçatan olacaq.

**Məlahət Rzayeva**

# Paşinyan ölkəsini ciddi zərbə altında qoydu

## Ermənistanın Rusiyaya döyüş təyyarələri verməsi Qərbin ağır sanksiyaları ilə nəticələnə bilər

**İllərdir Cənubi Qafqazda işğal siyasəti yürüdən Ermənistan indi də Ukraynada Rusiya işğalına dəstək verir: döyüş təyyarələri və pilotlarını Rusiya ordusunun ixtiyarına verib.**



Bu barədə "Haber Global" televiziya kanalı kəşfiyyat məlumatları əldə edib.

Telekanalın əldə etdiyi məlumata görə, dörd ədəd Su-30 tipli döyüş təyyarəsi martın 25-də Ermənistandan qalxaraq Ukraynadan istifadə olunmaq məqsədilə Rusiyaya yola düşüb. Bundan əlavə, Rusiya istehsalı qırıcıları xüsusi təlim görmüş erməni pilotlar idarə edəcək. Beləliklə, Ermənistan bu addımla Ukraynada işğala şərik, müharibənin isə tərəfi olub və növbəti dəfə regional sülhün yerinə münaqişəyə xidmət edib.

Bu, onu deməyə əsas verir ki, Ermənistan Ukraynaya qarşı aparılan hərbi əməliyyatlara qoşuldu. Bütün dünya Belarusun müharibəyə qoşulacağını gözləyən etsə də, Ermənistan onu qabaqladı və qarşıdurmanın iştirakçısına çevrildi. Güman etmək olar ki, bu gün Ukraynanın şəhərlərinin, infrastrukturunun dağıdılmasında Ermənistanın da "töhfələri" var.

Bundan əvvəl də Ermənistanın Ukraynada vuruşmaq üçün Suriyadan gətirilən yaraqlıların döyüş zonasına göndərilməsində rol aldığı bildirilmişdi.

Azərbaycandan aldığı zərbənin təsirindən tam ayılmayan Paşinyan hakimiyyəti ölkəsini yenə ciddi zərbə altına qoydu.

Rusiyaya hərbi, iqtisadi və digər yardım göstərən istənilən ölkəyə qarşı ciddi tədbirlər görüləcəyini bəyan edən ABŞ, Qərb ölkələri Ermənistanın bu addımına reaksiya verəcəklərmi? Bu ölkəyə də sanksiyalar tətbiq olunacaqmı?

**Mövzunu "Şərq"ə təhlil edən politoloq Cümşüd Nuriyevin sözlərinə görə, Paşinyan hakimiyyəti iki kürsüdə oturmaq istəyir:**

"Tarixən Ermənistanın dövlətçiliyi olmadığına görə ölkəni kilsə səviyyəsində idarə ediblər. Bu gün də Paşinyan ancaq erməni katalikosu səviyyəsində fikirləşə bilir. Ondan artığına gücü çatmır.

Ermənistanın xarici siyasəti yoxdur. Əgər olsaydı, bu günə düşməzdi. İndi də onlar iki kürsüdə oturmaq istəyirlər. Həm Qərbə sevgilərini göstərirlər, həm də Rusiyaya yaltaqlanırlar. Hərbi yardım da buradan doğur. Ancaq Rusiyanın Ermənistandan hərbi yardım alması onu biabırçı vəziyyətə salır. Ermənistan ustalıqla Qərbə göstərir ki, Rusiya mənim 4 qırıcıma ehtiyac duyacaq günə qalıb.

Təbii ki, Ermənistan bunun cəzasını alacaq. ABŞ Rusiyaya yardım edən 5 dövlətin siyahısını elan etdi. Bunlar Səudiyyə Ərəbistan, BƏƏ, Çin, Hindistan və Ermənistandır. Bu o deməkdir ki, ABŞ Ermənistana sanksiyalar tətbiq etmək istəyir.

Belə bir addım atıla bilər. Çünki Ermənistanın yürütdüyü siyasətdə bir çox məsələlər var ki, Amerikanı qane etmir. Əlavə olaraq Ukraynada döyüşən Ermənistan vətəndaşları var. Hətta Suriyadan gələnlərin də içində ermənilərin olduğu aşkarlanıb. Bu, yaxın zamanda Ermənistana sanksiyalar tətbiq olunacaq deməkdir.

Lakin Rusiya da Ermənistana qucaq açmayacaq, əksinə, cəzalandıracaq. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində Rusiya-Ermənistan münasibətləri kəskinləşəcək. Bu bizim xeyrimizədir. Çünki rusiyalı siyasətçilər İrəvanın iç üzünü gündəmə gətirir. Bu, qaçılmazdır. Ermənistan eyni zamanda həm Rusiya, həm də Qərb tərəfindən sanksiyaya məruz qala bilər".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə bildirib ki, bu hadisə Azərbaycana qarşı qərəzli davranan Qərb dövlətlərinə dərs olsun:**

"Biz 30 il müddətində bəyan edirdik ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, əbədiləşdirmək istəyir. Rusiyanın əlaltısı olub, Qafqazda şərin qalib gəlməsi üçün çalışıb. Yeni dünya düzənini pozur, bölgədə sabitsizlik yaradır. Bunlara inanmırdılar. Rəsmi İrəvan indiki addımı ilə bunu bir daha sübut etdi. Ermənistanın nə daxili, nə də xarici müstəqil siyasəti olub".

**F.Quliyev dünyanın Ermənistana münasibətinin dəyişəcəyini bildirib:**

"Kolxoz dövlətdir! Rəsmi Kiyevə qarşı atdığı addım da bunu büruzə verir. Dünya ilə anlaşmayan ölkələri siyasi və ictimai arena qəbul etmir. Beynəlxalq ictimaiyyətin trendində olan Ukraynaya hərbi müdaxilə edən Rusiya hər şeydən təcrid olunur. Ermənistana da eyni münasibət göstərilməlidir. ABŞ və Qərbin sanksiyalar qoyması ona olan münasibətin tamamilə dəyişdiyini açıqlayacaq".

**Sənan İsmayıl, Cəmilə Əzim**

# Rusiyanın təbliğatı çökür, dayaqları çat verir

## Moskva özünü gerçək informasiyadan qorumaq üçün müəyyən addımlar atır



**Azərbaycanın daha bir saytının - ”oxu.az” xəbər portalının Rusiyada yayımı qadağan edilib. ”Roskomnadzor”un (Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidməti - red) qərarına əsasən, ”oxu.az” saytı bloklanıb.**

Saytın redaksiyasına heç bir məlumat, xəbərdarlıq edilmədən atılan bu addım birbaşa söz azadlığına, demokratiyaya, plüralizmə zidd hesab olunur. Ekspertlərə görə, ”Roskomnadzor”un belə addım atması qərəzli və qanunsuzdur. Bu addım eyni zamanda Rusiya cəmiyyətinin obyektiv məlumat almaq, alternativ fikirlə tanış olaraq düzgün nəticəyə gəlmək hüququnun məhdudlaşdırılmasıdır. Xatırladaq ki, ”oxu.az” iki dildə - Azərbaycan və rus dillərində fəaliyyət göstərir. Bundan əvvəl rusdilli ”Haqqin.az” və ”Minval.az” saytları da Rusiya hökuməti tərəfindən ayrı-seçkiliyə məruz qalıb. Ekspertlərin fikrincə, Azərbaycan KİV-lərinin Ukrayna ilə bağlı yayımları, Rusiya-Ukrayna müharibəsində tutduğu obyektiv mövqe Moskvanı narazı salır. Lakin Rusiyanın Azərbaycan media qurumlarına belə yanaşması iki ölkə arasındakı münasibətlərə hörmətsizlikdir. Kremlin bloklama siyasəti dövlətin öz informasiya məkanını ”yad elementlərdən” təmizləmək istəməsi kimi dəyərləndirilə bilməz. Çünki Azərbaycan KİV-ləri heç bir halda söz və ifadə azadlığından sui-istifadə etmir. Onlar müharibəyə işğal faktı prizmasından yanaşırlar.

***"Rusiya çox ciddi informasiya fəlakəti ilə üz-üzədir və verdiyi qərarlar təəssüf doğurur"***

**Qərarı ”Şərq”ə dəyərləndirən media eksperti, professor Qulu Məhərrəmli deyib ki, bütün dünyanı informasiya müharibəsinə məruz qoyan Rusiyanın özü indi məhz həmin təbliğatın ən ciddi qurbanlarından birinə çevrilir. Professor bildirib ki, dünyanı yalana bürümüş Rusiya təbliğatı çökür, dayaqları çat verir. Ona görə də Moskva özünü gerçək informasiyadan qorumaq üçün müəyyən addımlar atır:** ”Yadınızdadırsa, bir neçə həftə əvvəl Rusiya parlamenti yalan məlumatlar, feyklər haqqında qanun qəbul etdi, ciddi cəzalar müəyyənləşdirdi. Yüksək cərimələrlə yanaşı, uzunmüddətli həbslər də nəzərdə tutulur. Bu, ilk növbədə Rusiya vətəndaşlarını qorxutmaq üçündür ki, onlar mövcud hakimiyyətin siyasəti əleyhinə istifadə etməsinlər. Rus ictimaiyyəti rusdilli saytlardan məlumat aldığı, orada yazılan reallıqları gördüyü üçün Rusiyanın müvafiq idarəsi saytları bloklayır. Rusiya hakimiyyəti ölkə ictimaiyyətinin gerçəkləri öyrənməsindən həddindən artıq qorxur”.

**Ancaq Q.Məhərrəmli hesab edir ki, bununla bağlı Rusiya-Azərbaycan münasibətlərində hər hansı gərginlikdən danışmaq tezdir:** ”Bu, Rusiyanın ”özünümüdafiə” və həqiqətdən qorunmaq instinktidir. Kreml bunun üçün bütün vasitələrdən istifadə edir və təkcə Azərbaycanla bağlı deyil. Gürcüstan və Ermənistanın da rusdilli saytlarının ölkədə yayımı qadağan olunub. Ukrayna haqqında ümumiyyətlə heç bir məlumat vermək olmaz. Prezident V.Zelenskinin rus mediasına verdiyi müsahibənin tirajlanmasına ölkənin müvafiq qurumu tərəfindən qadağa qoyulub. Rusiya çox ciddi informasiya fəlakəti ilə üz-üzədir və verdiyi qərarlar təəssüf doğurur”.

**İsmayıl Qocayev**



**Azərbaycan-Pakistan İqtisadi Əməkdaşlıq Palatasının sədri Xürrəm Bhattin münasibətlərdəki yeniliklərdən bəhs edib. Məlumata görə, hər iki ölkənin işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı planları var. X.Bhattin açıqlamasında bildirib ki, birgə müəssisələr yaradılması təklif edilir:**

”Pakistan çox böyük, inkişaf etmiş aqrar sektora malik olduğundan, Azərbaycanla birlikdə Qarabağda bəzi layihələr həyata keçirə bilər. İki ölkənin şirkətlərinin Gəncədə düyü dəyirmanı açmaq planları da var. Azərbaycan tərəfi ilə birgə müəssisənin açılması ilə bağlı müzakirələr aparılır. Pakistan şirkətləri Qarabağda tikinti işlərində də mühüm rol oynaya bilər. Artıq bununla bağlı bəzi şirkətlər Azərbaycanın müxtəlif institutları ilə danışıqlar aparır. Bu, Azərbaycana əhəmiyyətli dərəcədə birbaşa xarici investisiya gətirə bilər”.

# Pakistanın dünyada qəbul olunan brendləri var

## Bu ölkənin təcrübəsindən istifadə etmək məqsədəuyğundur

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-fevral aylarında Azərbaycanla Pakistan arasında ticarət dövriyyəsinin dəyəri 3,4 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 70 faiz çoxdur. Hazırda Azərbaycanda 2 mindən çox Pakistan şirkəti var.

**Azərbaycan və Pakistan arasındakı münasibətlərdən ”Şərq”ə bəhs edən politoloq İlqar Vəlizadə işğal zonalarında birgə müəssisələrin açılmasını praktiki cəhətdən əhəmiyyətli hesab edib:**

”SSRİ vaxtında Ağdam yüngül sənayenin mərkəzlərindən biri olub. Həmçinin Füzulidə pambıq emalı zavodları yerləşib, kənd təsərrüfatı sahəsi inkişaf edib. Ona görə də həmin regionlarda bu cür müəssisələrin yaradılması zəruridir. Pakistan dünyada yüngül sənayedə malların istehsalı ilə məşğul olan aparıcı qüvvələrdən biridir. Geyim, ayaqqabı, əşyalar və s. orada bol çeşidlidir. Əlbəttə, Pakistanın təcrübəsindən istifadə etmək məqsədəuyğundur”.

**Politoloq vurğulayıb ki, Pakistandakı bir çox müəssisə dünya brendlərinə aiddir:** ”Dünyadakı məşhur müəssilər Pakistanda müəssisələr açaraq mallarını istehsal edirlər. Keyfiyyətləri çox yüksəkdir. Həm İran, həm Avropa bazarlarına çıxardılır. Bu təcrübədən də yararlana bilərik. Burada açıla biləcək fabriklər və müəssisələr böyük yerli xammalın istifadəsi ilə bizə xeyir verəcək”.

**Cəmilə Əzim**

# Kreml başını itirib

## Rusiyanın Azərbaycan saytlarını bloklaması məntiqsizdir



**Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidməti (”Roskomnadzor”) oxu.az saytını ölkə ərazisində bloklayıb.**

Xatırladaq ki, bundan öncə Rusiya ərazisində Haqqin.az və Minval.az media qurumlarına da giriş məhdudlaşdırılıb. Məsələ ilə bağlı ”Ayna-Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı ”Şərq”ə danışarkən bildirib ki, Rusiya Ukraynaya hücum etdiyi məntiqlə də bu saytları bloklayıb: ”Rəsmi Moskvanın bununla nə əldə etmək istədiyini başa düşmək olmur. Çünki istər Haqqın.az, istər Minval.az, istərsə də Oxu.az saytları Rusiya ictimai fikrinə heç bir təsir göstərə bilməz. Qərar məntiqsizdir”. E.Şıxlı diqqətə çatdırıb ki, indi rəsmi Moskva özünə qarşı ən xırda tənqidi fikri belə qəbul edə bilmir: ”Bu onun öz daxili işidir. Amma hər halda media qurumlarına qarşı belə münasibət heç də yaxşı hal deyil”.

**Günəş Mərd**

# Siqaret bahalaşmayacaq

## Çəkməli tütün spesifik idxal rüsumundan azad edilib



**Nazirlər Kabineti ”Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edib.**

Qərar daxili bazarda yerli istehsalda istifadə olunan tütünün mümkün çatışmazlığının, habelə qiymət artımının qarşısının alınması və yerli tütün emalı sənayesinin aralıq məhsullarla təminatının mövcud səviyyəsinin qorunub saxlanılması məqsədilə hazırlanıb. Qərara əsasən xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının 2403 19 100 1 və 2403 19 900 1 alt yarımmövqeləri üzrə təsnifləşdirilən istehsal məqsədli çəkməli tütünün 31.12.2023-cü il tarixinədək spesifik idxal rüsumlarının tətbiqindən azad ediləcək. Belə ki, Qərarın qəbul edilməsi ilə yerli tütün emalı sənayesinin istehsal məqsədli çəkməli tütünə olan tələbatının ödənilməsi səviyyəsinin qorunub saxlanılması, sözügedən məhsulların təminatında mümkün çətinliklərin və qiymət artımının qarşısının alınması proqnozlaşdırılır.

# Xankəndi və ətraf bölgələrin qaz təminatını həll etməliyik

## “Ermənilərə qaz və işığın Ermənistan ərazisindən gəlməsinə də zamanla son qoyulmalıdır”

**Qarabağda uzun illər texniki xidmət göstərilmədən istismar olunan qaz paylayıcı xətlərdə nasazlıq baş verib. Nəticədə Xankəndi və ətraf bölgələrin qaz təchizatında problemlər yaranıb. Lakin ərazidə normadan artıq qarın yağmasına baxmayaraq, ”Azəriqaz” İB-nin bölgəyə ezam olunmuş əməkdaşları çətin relyefli ərazidə qəzanın nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüblər.**





Qurum tərəfindən qeyd olunub ki, martın 29-da Xankəndi və digər ətraf yaşayış məntəqələrinə təbii qazın verilməsi bərpa olunacaq. ”Azəriqaz” istehlakçılara təbii qazdan istifadə edən zaman diqqətli olmağı, texniki təhlükəsizlik qaydalarına ciddi riayət etməyi tövsiyə edib. Xatırladaq ki, Xankəndidəki ermənilərin qaz təchizatındakı təxirlə bağlı ABŞ və Avropa İttifaqından Azərbaycana müraciətlər olunmuşdu. Çünki ermənilər hadisədən sui-istifadə edərək qazın verilməsinin guya Azərbaycan tərəfindən qəsdən kəsildiyini iddia edirdilər. Hətta separatçılar bununla bağlı ”etiraz aksiyası” da təşkil etmişdilər. Məlumat üçün onu da bildirək ki, ermənilərə verilən qaz Ermənistandan gəlir, boru xəttinə Azərbaycan nəzarət edir.

AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın bütün bölgələrində kommunal xidmətlər müvafiq qurumlarımız tərəfindən həyata keçirilməlidir. Partiya rəhbəri bəyan edib ki, Xankəndi və ətraf bölgələr Azərbaycan əraziləri olduğu üçün qaz xəttində baş vermiş qəzalarla ”Azəriqaz” məşğul olmalıdır: ”Ümumiyyətlə, hesab edirəm ki, ermənilərə qaz və işığın Ermənistan ərazisindən gəlməsinə də zamanla son qoyulmalıdır. Üzərində kimin yaşamasından asılı olmayaraq, ərazilərimizin enerji təminatı Azərbaycan tərəfindən həyata keçirilməlidir. Bunu ən qısa zamanda etməliyik ki, dövlətin sözügedən bölgələrdə suverenliyi şübhə altına alınmasın. Əks halda ermənilər bu kimi hadisələrdən şou düzəltməyə, hay-küy salmağa davam edəcəklər. Separatçıların ”etiraz aksiyası” da bölgədəki qondarma rejimin legitimləşdirilməsi cəhdlərinin tərkib hissəsidir. Təəssüflə deməliyik ki, rus sülhməramlıları buna şərait yaradır və ermənilərə himayədarlıq edirlər. Ona görə də belə məsələlərdə qətiyyətli olmalıyıq. Azərbaycanın suverenliyini, qayda-qanunları qəbul edən ermənilər ölkə vətəndaşı kimi torpaqlarımızda yaşaya bilərlər. İstəməyənlər isə rus sülhməramlılarına qoşularaq Qarabağı tərk etməkdə sərbəstdirlər”.

**İsmayıl Qocayev**



**Lavrovun açıqlamasını ”Şərq”ə şərh edən REAL Partiyasının sədr müavini Natiq Cəfərli bildirib ki, Lavrovun bu açıqlaması özünə təskinlik verməkdir:**

”BMT-dəki səsvermə özünü aydın formada göstərib. Açıq şəkildə Rusiyanın mövqeyini müdafiə edən beş ölkədir. Bunlar təbii ki, Rusiyanın özü, Belarus, Suriya, Eritreya və Şimali Koreyadır. Digər dövlətlər isə ya əleyhinə səs verib, ya da bitərəf qalıb. Yəni dəstəkləməyiblər. Bu, son zamanlar Rusiyada ciddi müzakirə obyekti olub. İndi bu təbliğatı artırırlar. Sanki rusiyalı vətəndaşlara bir xəbər ötürürlər ki, biz tək deyilik, dünya ölkələri də yanımızdadır. Amma əslində BMT, Avropa Şurası, ATƏT-dəki səsvermələr hamısı göstərir ki, Rusiyanın yanında Kremllə birgə beş dövlət dayanır”.

# Rusiyanın yanında cəmi beş dövlət dayanır

## Lavrovun açıqlaması özünə təskinlik verməkdir

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Serbiya KİV-lərinə müsahibəsində bildirib ki, Rusiya izolyasiya edilməyib. S. Lavrovun sözlərinə görə, Rusiyanın heç bir izolyasiyasından söhbət gedə bilməz:**

”O ölkə özünü təcrid olunmuş hiss edə bilər ki, o, Qərb dəyərlərindən kənarda yaşamasını mümkün hesab etməsin”.

Rusiyanın XİN başçısı ölkəsinin çoxlu sayda tərəfdaşlarının olduğunu söyləyib:

”Lavrov Rusiyanın tərəfdaşları sırasında Çini, Hindistanı, Yaxın Şərq və Latın Amerikası ölkələrinin adını çəkib”.

**Sücayət Mehti**

# "Hizbullah" yaraqlılarını Ukraynaya göndərməyə hazırlaşır

## Bu terror təşkilatının əsas hərbi və maliyyə dəstəkçisi İrandır



**Rusiya nəşrlərinin məlumatına görə, Moskvaya bağlı ”Vaqner” özəl hərbi şirkətinin nümayəndələri Livanın İran dəstəkli hərbiləşmiş təşkilatı ”Hizbullah” yaraqlılarının Ukraynaya göndərilməsinə dair razılığa gəlib. Razılaşmaya görə, 800 ”Hizbullah” döyüşçüsü Ukraynaya döyüşmək üçün göndəriləcək.**

Ekspertlərin fikrincə, prinsip etibarilə ”Hizbullah”ın gec-tez Ukrayna-Rusiya müharibəsinə bu və ya başqa formada Kreml tərəfindən qoşulacağı bəlli idi. Xüsusilə ABŞ tərəfi bu iddianı tez-tez dilə gətirirdi. Hətta rəsmi Vaşinqton ”Hizbullah”ın Rusiya-Ukrayna müharibəsində Kremlə ehtimal dəstəyinin qarşısını almaq üçün qruplaşma ilə əlaqəsi olan 3 Livan vətəndaşını və 10 şirkəti sanksiya siyahısına daxil etmişdi. Bir müddət öncə Ukrayna Baş Qərargahı Rusiyanın hərbi əməliyyatlara Bəşər Əsədin muzdluları ilə yanaşı, ”Hizbullah” döyüşçülərini də cəlb etdiyini bildirmişdi. Göründüyü kimi ”Hizbullah” qeyri-rəsmi də olsa bir müddətdir Ukrayna-Rusiya müharibəsində Kreml tərəfindən Əsəd qüvvələri tərkibində döyüşür. ”Vaqner” nümayəndələri ilə ”Hizbullah” qruplaşması arasında əldə edilən son razılaşmadan sonra isə hərəkatın birbaşa Kreml tərəfindən Ukrayna müharibəsində döyüşəcəyi rəsmiləşdi.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, ”Hizbullah”ın Suriyanın Hums əyalətində səfərbərlik bürosu açmaq xəbərləri yayılıb. Analitikə görə, digər şöbə Livanın paytaxtı Beyrutda açılıb. Ekspertin fikrincə, ”Hizbullah” yaraqlılarının Ukraynaya göndərilməsinin birinci mərhələsi martın 29-u çərşənbə axşamına planlaşdırılır:** ”200 muzdlunun Dəməşqdən Belarusun Qomel vilayətindəki hərbi hava bazasına köçürüləcəyi iddia edilir. Əslində üzdə ”Hizbullah”dır, pərdə arxasında isə Tehrandır. ”Hizbullah”ın qısa zamanda təşkilatlanması, maliyyə resursu əldə etməsi mümkün deyil. Təşkilat bu hazırlığı həftələr öncədən görüb. ”Hizbullah” dünyanın bir sıra ölkəsində terror təşkilatı kimi tanınır. Bu terror təşkilatının əsas hərbi və maliyyə dəstəkçisi İrandır. İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahianın Moskvaya son səfəri sonrası ”Hizbullah”ın belə bir qərar verməsi təsadüfi deyil. Məsələ ondadır ki, səfər çərçivəsində Rusiya ilə İran arasında gizli anlaşma əldə edildiyinə dair xəbərlər mövcuddur. Aydındır ki, İran Moskvanın yeni nüvə anlaşmasını canlandırmasını dəstəkləməsi müqabilində Qərbin sanksiyalarından yan keçməkdə Rusiyaya kömək edəcəyinə söz verib. İndiki halda Rusiyaya kömək məhz ”Hizbullah” üzərindən mümkündür”.

**İsmayıl Qocayev**

# Azərbaycanın nüfuzu hər gün artır

## Ölkəmiz dünyanın vacib beynəlxalq subyektinə çevrilir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



**Azərbaycanla Avropa ölkələri, Avropa İttifaqı arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Bir müddət əvvəl birliyin rəsmi şəxslərinin Bakıya səfərindən sonra ötən ay Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda oldu.**

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 21-də Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Rəsmi Bakı Avropa İttifaqı ilə münasibətlərə həmişə xüsusi diqqət yetirib. Avropa İttifaqı qlobal siyasət və Avrasiya bölgəsinin mühüm birliklərindən biridir. Ölkəmizin Avropaya inteqrasiya yolunda, həmçinin, diplomatik fəaliyyətdə tarixi əhəmiyyət kəsb edən bu qurum Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsində, mövqeyinin möhkəmləndirilməsində böyük rol oynayır. Aİ və Azərbaycan arasında hüquqi müqavilə imzalandıqdan sonra tərəflər arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasında böyük önəm daşımağa başladı. Azərbaycanın Avropa İttifaqının bir neçə üzv ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədləri qəbul etməsi və ya imzalaması qarşılıqlı əməkdaşlığa layiqli töhfədir. Prezident İlham Əliyev 2004-cü ildən etibarən qurumla əlaqədar 9 dəfə Brüsselə səfər edib. 2012-ci ildən etibarən Şura prezidentləri 4 dəfə Bakıya gəlib. Azərbaycan Aİ-nin 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb: Latviya, Litva, Rumıniya, Xorvatiya, İtaliya, Macarıstan, Bolqarıstan, Çexiya və Polşa. Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra da qurumla əlaqələr daha da inkişaf edib.

Son həftələr Ukrayna ətrafında cərəyan edən hadisələr, Qərblə Rusiya arasında siyasi, iqtisadi və dolayısı yola hərbi toqquşmalar, dünyanın yenidən qütblərə bölünməsi ayrı-ayrı güc mərkəzlərinin ölkəmizə marağının və diqqətinin daha da artmasına səbəb olub. Azərbaycana marağın artması ölkəmizin vacib strateji coğrafi yolayrıcında yerləşməsi, zəngin təbii resursları ilə yanaşı, həm də, dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətlə dünyada sayılıb-seçilən liderlər sırasında olması ilə bağlıdır. Heç kimdə şübhə yoxdur ki, siyasətdə lider amili həmişə ən vacib faktor olmaqla, xalqların gələcəyi üçün müstəsna əhəmiyyətə malikdir. Azərbaycanın ABŞ, Böyük Britaniya, Aİ və Rusiya ilə münasibətləri Qara dənizdən Çinə qədər orta xətdə yerləşən bütün dövlətlərdən kardinal şəkildə fərqlənir. Keçmiş Sovet İttifaqına daxil olan respublikalardan fərqli olaraq, Azərbaycan 1990-cı illərdə başlanan və hazırda davam edən beynəlxalq qütbləşmədə iştirak etmir. Təsadüfi deyil ki, bir neçə il əvvəl ardıcıl olaraq NATO və Rusiya, ABŞ və Rusiya generalları arasında bir çox görüş məhz neytral məkan olan Bakıda baş tutub. Bu yaxınlarda isə Ukrayna Prezidenti Vladimir Zelenskinin də Moskva və Kiyev arasında görüş yerlərindən biri kimi məhz Bakını təklif etməsi hərbi-siyasi bloklarda yer almayan Azərbaycanın xarici siyasət davranışındakı uğurlu gedişlərlə bağlıdır. Martın 8-də İtaliya Baş naziri Mario Draqi Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub. Avstriya Prezidenti Aleksander Van der Bellen Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda Azərbaycan və Avstriya arasında qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlər yüksək qiymətləndirilib. Tarixən dünya siyasətində xüsusi yer tutan Böyük Britaniya da son zamanlar Azərbaycana olan diqqətini daha da artırıb. Martın 1-də Avropanın digər vacib dövlətlərindən sayılan, hazırda Avropa İttifaqına sədrlik edən Fransanın Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə telefonla zəng edib. Söhbət zamanı Ukraynada cərəyan edən böhran vəziyyəti və Ukraynaya humanitar dəstəyin göstərilməsi məsələləri müzakirə olunub. Son 1 ayda isə Prezident İlham Əliyevə zəng edənlər siyahısında NATO-nun baş katibi və Polşa prezidenti də var. Dünən isə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfər edib. XİN rəhbərinin Almaniyada mühüm görüşlər keçirəcəyi deyilir.

***"Son həftələr ərzində Azərbaycan liderinə edilən zənglər, yazılan məktublar bunun bariz göstəricisidir"***

**Millət vəkili Cavid Osmanov "Şərq"ə bildirib ki, biz ölkəmizə dünya liderlərinin artan marağını, onların bizə tərəf istiqamətlənməsinə şahidlik edirik.** Deputatın sözlərinə görə, Azərbaycan hazırda Avropa İttifaqı, Böyük Britaniya və ABŞ üçün vacib beynəlxalq subyektə çevrilib: "Dünyanın diqqətinin Ukraynada olduğu bir vaxtda son həftələr ərzində Azərbaycan liderinə edilən zənglər, yazılan məktublar bunun bariz göstəricisidir. Həmin dialoqlar zamanı Azərbaycanın bütün sahələrdə onlar üçün vacib tərəfdaş olduğu yüksək qiymətləndirilir, ikitərəfli münasibətlərin inkişafında maraqlı olduqları qeyd edilir. Son 1 ay ərzində Azərbaycan liderinə artan telefon zəngləri və yazılan məktublar, sözsüz ki, rəsmi Bakının beynəlxalq sistemin vacib subyekti olduğunun göstəricisidir. Azərbaycan dünya ölkələrinin hörmətlə yanaşdığı nüfuzlu dövlətə çevrilib. Şübhəsiz, bu, dövlət başçısı İlham Əliyevin düşünülmüş xarici siyasəti sayəsindədir. Azərbaycanın nüfuzunun artması liderimiz İlham Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. Ölkə rəhbəri eyni zamanda milli maraqlara söykənən xarici siyasət həyata keçirir və bütün dövlətlərlə əlaqələr bu prinsip əsasında qurulur".

*C.Osmanov qeyd edib ki, Avropa ölkələrinin rəsmiləri Azərbaycanla daha sıx əməkdaşlıqda maraqlı olduqlarını açıq bəyan edirlər:* "Avropa dövlətləri Azərbaycanla əlaqələrin genişlənməsində yeni əməkdaşlıq platformaları təklif edirlər. Əlbəttə, Qərb ölkələri ilə əməkdaşlıq, əlaqələrin inkişafı Azərbaycanın maraqları baxımından da önəmlidir. Qarşılıqlı münasibətlər ölkəmizin bölgədəki rolunun, nüfuzunun artması ilə yanaşı, regional təhlükəsizliyin təmin olunmasına da mühüm töhfə verir, iqtisadi dividendlər gətirir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Daha atəşə tuta bilməyəcəklər

## Ağdam şəhəri və 10-dan artıq kənd tam təhlükəsiz hala gəldi

**Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib. Bu barədə Müdafiə Nazirliyi məlumat verib.**

Azərbaycan Ordusunun bölmələrinin həmin mövqelərdən geri çəkilməsi haqqında məlumat həqiqəti əks etdirmir. Ordumuz əməliyyat şəraitinə tam nəzarət edir.



Rusiya Federasiyası Müdafiə Nazirliyinin açıqlamasında atəşkəsin guya Azərbaycan tərəfindən pozulması barədə verilmiş məlumat da həqiqətə uyğun deyil və Azərbaycan hərbçiləri arasında yaralanma halı qeydə alınmayıb.

Qeyd edək ki, Rusiya Müdafiə Nazirliyi yaydığı məlumatda Azərbaycan tərəfinin öz bölmələrini Qarabağın Fərrux yaşayış məntəqəsindən çıxardığını qeyd etmişdi.

**Qarabağ qazisi, hərbi-jurnalist Rey Kərimoğlu Fərrux yüksəkliyi və onun əhəmiyyəti haqqında "Şərq"ə danışıb. O bildirib ki, həmin ərazi ciddi strateji əhəmiyyəti olan yerdir:**

"Əvvəlla bu yalnızca bir kənd deyil. Orada Fərrux dağ yüksəkliyi silsiləsi var. Bu silsilə 6-7 dağdan ibarətdir. Oradan Fərrux kəndi ilə birlikdə bir neçə yüksəklik bizdədir. Fərrux kəndi 31 evdən ibarət bir yerdir. Amma Fərrux dağ yüksəkliyi adlanan ərazi çox hündür bir dağ silsiləsidir və ciddi strateji əhəmiyyəti olan bir yerdir. O dağ yüksəkliyi azad olunub və Azərbaycan Ordusunun nəzarətinə keçib. Bununla da Ağdam şəhəri və 10-dan artıq kənd tam təhlükəsiz vəziyyətdədir. Artıq düşmən oranı atəşə tuta bilməyəcək. Çünki ora elə bir yüksəklik idi ki, Ağdam və onun 10-dan artıq kəndi düşmənin ovcunun içində qalırdı. Artıq bu məsələ həll olundu. Eyni zamanda Əsgəran, Xanabad, Xocalı da tam şəkildə Azərbaycan Ordusunun ovcunun içində olacaq".

**Hərbi-jurnalist qeyd edib ki, Azərbaycan Ordusu bu işi dinc yolla həyata keçirib:**

"Ona görə də bu məsələni yüksək qiymətləndiririk. Bu, Azərbaycan Ordusunun bir güllə atmadan və heç bir insana xəsarət yetirmədən keçirdiyi işdir. Buna əməliyyat deməyək. Çünki 2020-ci il 10 noyabr üçtərəfli sazişində konkret olaraq göstərilib ki, rus sülhməramlı qüvvələr əraziyə yerləşdirilir, parelel olaraq erməni silahlı qüvvələr çıxarılır. Təəssüf ki, Rusiya və Ermənistan bu sazişə əməl etmir. Azərbaycan Ordusu bunu məcbur olub dinc yolla, yerlərdə yerdəyişmə etməklə bu məsələni özü həll edir. Ermənistan və Rusiya Müdafiə Nazirliyi Azərbaycan dövlət və ordusunun bu xoşməramlı niyyətinə ləkə atır.

Azərbaycan Ordusu BMT tərəfindən tanınmış ərazisində döyüş postlarını daha uyğun mövqelərlə dəyişir. Bu günə qədər ermənilər daim bu əraziləri atəşdə saxlayıb. Paralel olaraq da Azərbaycan Ordusu onları bir güllə atmadan, itki vermədən dinc yolla susdurub".

*R.Kərimoğlu sonda qeyd edib ki, Azərbaycann bu addımını yalnız alqışlamaq lazımdır.*

**Çimnaz Şahlar**

**Elanlar**

Kazımov Kazım Mustafa oğlunun adına "Kapital Bank" ASC Göygöl filialı tərəfindən verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Fövqəladə Hallar Nazirliyinin Yasamal rayon 30 - Yanğından mühafizə bölməsinin əməkdaşı, yanğınsöndürən çavuş Babayev Etibar Həmzərt oğluna məxsus xidməti vəsiqə və şəxsiyyəti təsdiq edən sənəd itdiyi üçün etibarsız sayılır.

---

"Bakı Hərrac Mərkəzi" MMC

Lot 061/22 üzrə Bakı şəhəri, Badamdar qəsəbəsi, 2-ci yaşayış massivi, ev 226 ünvanında yerləşən 3 mərtəbəli, 6 otaqlı fərdi yaşayış evinin 28 mart 2022-ci il tarixində keçirilən təkrar hərracı baş tutmamışdır.

---

Naxçıvan şəh. M.R. Babək rayonu, Didivar kənd sakini Şükürobəv İman Əmir oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

2017/178 Əsas
2021/Qərar
Kozaklı Birinci İntanasiya Mülki Məhkəmə
(Ailə Məhkəməsi kimi)

**Elan Mətni**

İddiaçı SEDAT UZUN ilə cavabdeh, SABİHA GOSAYEVA arasında məhkəməmizdə görülən Nikahın Pozulması (Ailənin saxlanmasının qeyri-mümkünlüyünü səbəbiylə Nikahın pozulması) iddiası səbəbi ilə;

Tərəflər arasında Məhkəməmizdə görülən 2017/178 əsas nömrəli iddia ərizəsində Məhkəməmiz tərəfindən tərəflərin 22/12/2021 tarixli iclasdaNevşehir şəhəri, Kozaklı rayonu, Kızılkoyunlu qəsəbəsi cild no:04, ev: 33 qeydiyyatlə Kadir oğlu Sevgidən doğulma 09/11/1981 doğumlu (34396631128 T.R. şəxsiyyət vəsiqəli nömrəli) SEDAT UZUN ilə Resul qızı Minayədən doğulma 01/03/1970 doğumlu Azərbaycan vətəndaşı SABİHA GOSAYEVANIN Türk Mülki Məcəlləsi 166/1 maddəsi ilə NİKAHIN POZULMASINA qərar verildiyinə görə bu elan mətninin AZƏRBAYCANDA dərc edilən bir qəzetdə nəşr olunaraq nəşr olunduqdan etibarən 7 (yeddi) gün sonra müvafiq şəxsə xəbərdar edildiyi hesab edilərək Azərbaycan vətəndaşı cavabdeh SABİHA GOSAYEVAYA açıq şəkildə elan etmiş olur.

Katib 77601 Hakim139002
e-İmzalıdır e-İmzalıdır

Möhür: T. R. Kozaklı Birinci İnstansiya Mülki Məhkəmə

**ELAN**

**Türkiyə Respublikası 2-ci Əsliyə Hüquq Məhkəməsi**
**(Ailə Məhkəməsi qismində)**

**Əsas No:2019/61 Əsas**
**İddiaçı: Xədicə Nəbili**

İddiaçı İhsan Dəmir tərəfindən əleyhinizə açılan Boşanma (mübahisəli) işinin aparılan məhkəmə işində

Məhkəməmiz iş cavabdeh Azərbaycan Respublikası vətəndaşı olan 20.08.1958 təvəllüdlü Məmməd və Rübabə qızı Xədicə Nəbiliyə xaricdəki ünvanına edilən məhkəmə ərizəsində qeyd edilən ünvanına məhkəmə gününü bildirən dəvətnamə çıxarılmış ancaq təbliğ edilməmişdir.

Ünvan araşdırmasında da bir nəticə əldə edilmədiyi üçün məhkəmə ərizəsi və məhkəmə gününün ilan vasitəsi ilə təbliğ edilməsinə qərar verilmişdir.

Məhkəmə günü 04.03.2022 tarixində saat 09:10 da məhkəmə iclasına gəlməyiniz və ya özünüzü bir vəkilə təmsil etdirməniz, Hüquq Mühakiməsi qanununun 139-cu maddəsi "Sülh üçün lazım olan hazırlığı etməniz, məhkəməyə tərəflərdən birinin gəlməsi və mühakiməyə davam etmək istəməsi halında gəlməyən tərəfin yoxluğunda edilən proseslərə etiraz edə bilməyəcəyiniz, dəvətnamənin təbliğ tarixindən etibarən iki həftəlik müddət ərzində ərizənizdə qeyd etdiyiniz ama təqdim etmədiyiniz sənədləri məhkəməyə təqdim etməniz, başqa yerdəm gətiriləcək sənədlərin gətirilə bilməsi üçün izahat verməniz, bu xüsusların verilən müddət ərzində yerinə yetirilməməsi halında o dəlilə sığınmaqdan imtina etmiş sayılacağınıza qərar veriləcəyi, Təbliğdən etibarən iki həftəlik müddət ərzində tanıdıqlarınızın ad və açıq ünvanları ilə şahid dinlətmək istədiyiniz hadisələri bildirməniz, bildirmədiyiniz tədqirdə şahid dinlətmə tələbindən imtina etmiş sayılacaqsınız. Hüquq Məhkəməsi Qanununun 147/2 maddəsinə əsasən qeyd edilən gün və saatda tutarlı bir səbəb olmadığı təqdirdə məhkəmə iclasına gəlmədiyiniz halda yoxluğunuzda davam ediləcəyi və aparılan işləmlərə etiraz edəbilməyəcəyiniz, ayrıca təhqiqatın bitdiyində sözlü məhkəmə işinə keçiləcəyi və sözlü məhkəmə üçün məhkəmə iclasının təxirə salınması halında tərəfinizə ayrı dəvətnamə göndərilməyəcəyi və Hüquq Mühakiməsi Qanununun 150-ci maddəsi hökmü əsas alınaraq yoxluğunuzda qərar veriləcəyi tərəfinizə xəbərdar edilir." Məhkəmə ərizəsi və məhkəmə günü yerinə keçən elan tərəfinizə təbliğ edilir.

**HAKİM 219682**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 785**

**Forma № 1S** **Azərbaycan Respublikasının**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: ___"Qala Həyat" SŞ ASC______

Hesabat dövrü ________2021-ci ilin 4-cü rübü__________________________

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I .UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **861847,79** | **830879,47** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | **664512,8** | **502884,56** |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **11024798,81** | **10087036,76** |
| dövlət qiymətli kağızları | 8524798,81 | 7587036,76 |
| qeyri-dövlət qiymətli kağızları | 2500000 | 2500000,00 |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | **4022181,9** | **4140286,27** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | ***16573341,3*** | ***15561087,06*** |
| II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **1416825,58** | **1446035,03** |
| birbaşa sığorta üzrə | **1211776,71** | **970371,73** |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **0** | **0,00** |
| - təkrarsığortaçı üzrə | 0 | 0,00 |
| - təkrarsığortalı üzrə | 0 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0 | 0,00 |
| büdcə üzrə | 0 | 0,00 |
| iddia tələbləri üzrə | 0 | 0,00 |
| işçi heyəti üzrə | 8300 | 24999,62 |
| sığortalılara verilən borclar üzrə | 0 | 0,00 |
| sair debitorlar | 196748,87 | 450663,68 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **7098017,55** | **10364784,64** |
| kassa | 3679,1 | 1215,04 |
| hesablaşma hesabı | 1194260,99 | 1169508,17 |
| valyuta hesabı | 235077,45 | 94061,43 |
| depozit hesablar | 5665000,01 | 9100000,00 |
| sair pul vəsaitləri | 0 | 0,00 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **12978133,2** | **17984281,49** |
| dövlət qiymətli kağızları | 12978133,2 | 17984281,49 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **849224,01** | **272695,22** |
| həyat sığortası sahəsi üzrə | 849224,01 | 272695,22 |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | **0** | **0,00** |
| gələcək hesabat dövrlərinin xərcləri | 0 | 0,00 |
| verilmiş avanslar | 0 | 0,00 |
| təhtəl hesablar | 0 | 0,00 |
| **Sair aktivlər** | **5141,09** | **1767,84** |
| ***Cəmi qısamüddətli aktivlər*** | ***22347341,43*** | ***30069564,22*** |
| CƏMİ AKTİVLƏR | **38920682,73** | **45630651,28** |

| K A P İ T A L  V Ə  Ö H D Ə L İ K L Ə R | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I . KAPİTAL | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **13041600** | **13041600,00** |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **12636147,77** | **10377192,17** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 2189167,68 | 4741043,99 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | 10446980,09 | 5636148,18 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | ***25677747,77*** | ***23418792,17*** |
| II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |

| | | |
|---|---|---|
| **Sığorta ehtiyatları:** | **11245091,95** | **12284498,14** |
| Həyat sığortası sahəsi üzrə : | 11245091,95 | 12284498,14 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | **0** | **0,00** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **232786,32** | **207986,32** |
| təkrarsığortaçı üzrə | 232786,32 | 207986,32 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | **0** | **0,00** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | ***11477878,27*** | ***12492484,46*** |
| III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **304889,14** | **897398,56** |
| əməyin ödənilməsi üzrə | 0 | 0,00 |
| büdcə üzrə | 159554,06 | 661010,48 |
| sosial sığorta və təminat üzrə | 51035,65 | 55746,33 |
| digər məcburi ödənişlər üzrə | 46953,96 | 46430,21 |
| asılı təşkilatlar üzrə | 0 | 0,00 |
| sair kreditorlar | 47345,47 | 134211,54 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | 7000000,00 |
| **Sair öhdəliklər** | 1460167,55 | 1821976,09 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | ***1765056,69*** | ***9719374,65*** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | ***13242934,96*** | ***22211859,11*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **38920682,73** | **45630651,28** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Rəhbər** ______________________ **M.Y.**

**Baş mühasib** ______________________

**Forma № 2S**

**Azərbaycan Respublikasının**
**Maliyyə Nazirliyinin**
**5 dekabr 2008-ci il**
**İ-125 №-li əmri ilə təsdiq edilmişdir.**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN**

Sığortaçının (təkrarsığortaçının) və ya sığorta brokerinin adı:___"Qala Həyat" SŞ ASC____

Hesabat dövrü **2021-ci ilin 4-cü rübü**

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 19184392,16 |
| birbaşa sığorta üzrə sığorta haqları | 19184392,16 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 0,00 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 0,00 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 0,00 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -1615934,98 |
| **İnvestisiya gəlirləri üzrə** | 1735470,88 |
| **Subroqasiya gəlirləri** | 0,00 |
| **Sair gəlirlər** | 46991,24 |
| CƏMİ GƏLİRLƏR | **19350919,30** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **4912323,12** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 3119408,43 |
| qaytarılan sığorta haqları üzrə | 1451137,84 |
| tənzimləmə xərcləri | 0,00 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 341776,85 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 0,00 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| **İşlərin aparılması xərcləri** | 8244461,62 |
| **Sair xərclər** | 48448,31 |
| CƏMİ XƏRCLƏR | **13205233,05** |
| **Maliyyə mənfəəti (zərəri)** | **6145686,25** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | **0,00** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **6145686,25** |
| **Mənfəət vergisi** | **1404642,26** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **4741043,99** |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 0 | 745000 |
| Əlavə dəyər vergisi | 0 | 0 |
| Gəlir vergisi | 34031,97 | 28505,28 |
| Əmlak vergisi | 7379,31 | 0 |
| Torpaq vergisi | 0 | 0 |
| Aksizlər | 0 | 0 |
| Ödəmə mənbəyində vergi (4%) | 33210,24 | 0 |
| Sair vergilər | 0 | 204304 |
| Sosial sığorta və təminat | 529998,24 | 534442,35 |
| Məcburi ödənişlər (0,3%) | 0 | 0 |
| İqtisadi sanksiyalar | | |

**Rəhbər:** ______________________

**M.Y.**

**Baş mühasib :** ______________________

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**“Qala Həyat Sığorta” ASC -nin İdarə heyətinin sədri vəzifəsini müvəqqəti icra edən, Azər Əlizadənin diqqətinə**

***Rəy***

Biz **“Qala Həyat Sığorta” ASC** 31 dekabr 2021-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülassəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika Məcəlləsinin” (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Auditor hesabatının davamı

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

”Caspian Consulting and Partners” MMC

Direktor/Auditor: Elnurə Abdinova

Tarix: 15.03.2022

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti • Caspian Consulting and Partners • Limited Liability Company • Azerbaijan Republic



# "Traktorla İspartadan İstanbula necə gedə bilərəm?"

## 6 dəfə körpüdən, 3 dəfə magistral yoldan ödənişsiz keçdiyinə görə cəza gəldi

**Türkiyənin İsparta bölgəsində yaşayan 11 uşaq anası pul cəzasına məruz qalıb.**

Emine Tüzün traktoru ilə 6 dəfə körpüdən, 3 dəfə magistral yoldan ödənişsiz keçib. Buna görə Nəqliyyat və İnfrastruktur Nazirliyi onu 476 lirə cərimələyib.

İstanbuldan 650 kilometr uzaqda yaşayan və son 10 ildə əri ilə üç dəfə oğlunun maşını ilə İstanbula gedən Emine Tüzün Nəqliyyat və İnfrastruktur Nazirliyinin göndərdiyi cərimə hesabından sonra təəccüblənib.

Tüzünə göndərilən protokollarda onun traktoru ilə ötən il oktyabr və noyabr aylarında körpüdən 6 dəfə, İstanbul-Ankara şosesi və Mahmutbey-Ədirnə yolunu isə 3 dəfə ödəniş etmədən keçdiyi bildirilir.

Son 10 ildə əri ilə cəmi 3 dəfə İstanbula getdiyini bildirən Emine Tüzün "Oğlumun maşını ilə getdik. Pulunu ödədik. Traktorla İspartadan İstanbula necə gedə bilərəm?" deyib.

Tüzün, "Traktor maksimum sürəti saatda 30 kilometr olan kənd təsərrüfatı texnikasıdır. Ayağımızı qaz pedalından çəkmədən, ara vermədən ora çatmağımız 24 saat çəkir. Zatən bu mümkün deyil. İnşallah. Yanlış yoldan dönərlər" deyib.

**Çimnaz**

# II Yelizaveta qolf arabası aldı

## Vindsor qəsrini gəzmək asanlaşacaq



**Britaniya kraliçası II Yelizaveta koronavirus infeksiyasına yoluxduqdan sonra Vindsor qəsrini gəzməyi asanlaşdırmaq üçün 62 min funt-sterlinqə qolf arabası alıb.**

Satınalma, güman ki, martın ortalarında - monarxın yoluxucu xəstəlikdən əziyyət çəkməsindən bir neçə həftə sonra həyata keçirilib. Bəzi mənbələrə görə, kraliça əlil arabasında çox vaxt keçirməyə məcbur olur. O, xalq qarşısına çəliklə çıxır. Oxu.az xəbər verir ki, alınan avtomobilə gəlincə o, dörd nəfər üçün nəzərdə tutulub və maksimum 70 km/saat sürət yığa bilir. Mətbuatın "Kraliçamobil" adlandırdığı avto "Bluetooth" dinamikləri, qızdırılan ön şüşə, 14 düymlük yüngül lehimli disklər, soyuducu və əyləncə ekranı ilə təchiz edilib.

*Qeyd edək ki, koronavirusun fəsadlarına və sağlamlığının pisləşməsinə baxmayaraq, II Yelizaveta taxtdan imtina etmək niyyətində deyil.*

# Türk bloger azərbaycanlı ilə sevgilidir



**Türkiyənin tanınmış blogeri Ezgi Fındıkın azərbaycanlı bəylə sevgili olduğu iddia edilib.**

**"Olay" xəbər verir ki, bununla bağlı xəbər "Birkahvebingiybett" səhifəsində paylaşılıb. Deyilənə görə, Ezginin bir müddətdir gizlətdiyi sevgilisi Kamal Hüseynov adlı şəxsdir.**

**Hətta bloger özü də instaqramda K. Hüseynovu izləyir. Eyni zamanda, bu iddialar yayıldıqdan sonra Kamal gizli səhifəsindən profil şəklini və bioqrafiya hissəsində yer alan ad-soyadını silib.**

# Məşhurlar ayrılıb?

## Cütlük məsələ ilə bağlı hələlik açıqlama verməyib



**Türkiyəli aktrisa Özge Yağızla nişanlısı, həmkarı Gökberk Demirci ayrılıb.**

**Axşam.az xəbər verir ki, iddiaların yaranmasına səbəb Özgenin nişanlısı Gökberklə olan bütün fotolarını sosial media hesabından silməsi olub. Lakin şəkillər aktyorun hesabında qalır və bir-birilərini izləməyə davam edirlər. Cütlük məsələ ilə bağlı hələlik açıqlama verməyib.**

***Xatırladaq ki, Gökberk və Özge "Yemin" serialında tanış olub eşq yaşamağa başlayıb. Cütlük evlənməyə hazırlaşırdı.***

# Günəşin bugünədək çəkilmiş ən detallı şəkilləri yayımlandı



**"Solar Orbiter" Günəşin bu günə qədər görünməmiş, tam detallı fotolarını əldə edib.**

**Oxu.az əbər verir ki, görüntülər martın 7-də qeydə alınıb və "Extreme Ultraviolet Imager" (EUI) tərəfindən lentə alınmış fotolardan birində Günəşin indiyədək çəkilmiş ən yüksək keyfiyyətli təsviri əks olunub.**

**Şəkillər Yerdən Günəşə qədər təxminən 75 milyon kilometr məsafədən çəkilib.**



# Təkbaşına 40 nəfəri öldürüb

## "Putinin ölüm mələyi" yaxalandı



**Ukrayna cəbhəsində 7 generalını itirən Rusiyanın "Bagira" ləqəbli snayperi İrina Starikova yaxalanıb. İ.Starikovanın təkbüşına 40 nəfəri öldürdüyü deyilir.**

Bu barədə "Milliyet.com" xəbər verir. Xəbərdə qeyd olunur ki, snayper qadın Ukraynaya qarşı döyüşlərin birində yaralandığı, lakin "silahdaşları"nın onu ataraq qaçdığını deyib. İ.Starikova Donetsk bölgəsindəki separatçılarla bir cəbhədə döyüşürmüş. Ukraynalı əsgərlər Starikovanı yaralı halda əsir alıb. İ.Starikovaya "Putinin ölüm mələyi" də deyilir. Qadın snayperin Ukrayna gücləri tərəfindən yaxalandığını "King-s College London" Müharibə Araşdırmaları Bölümünün tədqiqatçısı Giorgi Revishvili də təsdiqləyib. G.Revishvili Starikovanın dinc əhali də daxil olmaqla ümumilikdə 40 ukraynalını öldürdüyünü qeyd edib. İ.Starikova əslən serbiyalıdır. 2014-cü ildən Ukrayna hökuməti tərəfindən axtarışda idi. Starikovanın əsl ad və soyadının Daniela Lazoviç olması, illər öncə həndbol komandasının üzvü olması və nakrotik maddə qaçaqmalçılığına görə axtarışa verildiyi də bildirilir. İ.Starikova haqqında məlumatlarda hətta onun bir dönəm rahibə olduğu da deyilir.

**Məlahət**

# "Omicron" sönür

## Karantin qaydaları daha da yumşaldılacaq



**Dünya üzrə koronavirusun "Omicron" ştammına yoluxma və ölüm sayında nəzərəçarpacaq eniş müşahidə edilir. Tibb mütəxəssislərinin proqnozları özünü doğrultdu, deyə bilərik. Mütəxəssislər "Omicron" ştammının yoluxuculuq qabiliyyətinin sürətli olmasının, pandemiyanın sonunu gətirəcəyini bildirirdi.**

Sürətli yoluxma kütləvi xəstələnmələrə və nəticə etibarilə kütləvi immunitetin yaranmasına səbəb olur. Bu qənaət təsdiqini tapır artıq. Əvvəlki ştamlara nisbətən daha yüksək yoluxma sürətinə malik "Omicron"a qarşı artıq kütləvi immunitet formalaşıb. Bu, özünü xəstə sayının və ölüm hallarının azalmasında göstərir. Təbii ki, virusun sönməsində peyvəndləmənin də əhəmiyyəti böyük oldu. Peyvəndləmə kampaniyası dünyanın hər yerində eyni dərəcədə aparılmasa da, əhali arasında peyvənd vurdurmayanların hələ də mövcudluğuna baxmayaraq durum bir xeyli müsbətdir. Türkiyənin İstanbul Tibb Fakültəsi Yoluxucu Xəstəliklər və Klinik Mikrobiologiya şöbəsinin professoru, doktor Haluk Eraksoy bildirib ki, 2022-ci ilin koronavirusla vidalaşma ili olacağına ümidləri böyükdür. **"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Haluk Eraksoy pandemiyanın artıq sönməyə başladığını qeyd edib:** "Yoluxmada yüksəlişlər yoxdur artıq, əksinə, nəzərəçarpan bir eniş görürük. Göz dəyməsin. Xəstəxanamızda yoluxma sayı yüksək olduğu zamanlarda 300-dək xəstə vardı. Son 2-3 ayda 50-60 xəstə oldu. Sonra 40-30. İndi isə cəmi 3 xəstəmiz var. Onlar da peyvənd vurdurmayanlar, ya da yanaşı, hər hansı xəstəliyi olanlardır. Xəstələr gəlir, analiz verirlər, "Covid"dirsə, "xəstəsən, get evə, müalicə al" deyirik. Yəni xəstəxanya yatırılası ağırlıqda xəstəmiz, demək olar ki, yoxdur artıq. "Covid" sönür, deyə bilərəm". Lakin professor "Omicron"un hansısa yeni bir varianta dönüşə biləcəyi təhlükəsinin də tam aradan qalxmadığını söyləyib: "Hazırda "Omicron"un alt variantı - BA2-nin hökm sürdüyünü təxmin edirik. Bəzən BA2-yə yoluxanların sayı artdı, kimi mülahizələrin şahidi oluruq, amma mən bu fikirdə deyiləm. Fəqli bir variant ola blər, lakin bu da "Omicron"un bildiyimiz xüsusiyyətlərini daşıyır. Tez yoluxur, amma yüngül keçir. Yoluxanlar xəstəliyi ayaqüstü keçirir. Tibdə belədir: hansı virusa yoluxursunuz yoluxun, o, mütləq insanda immunitet formalaşdırır və bu immunitet 100-də 100 olmasa da, böyük ölçüdə xəstəliyin qarşısını alır. Bu mənada bütün dünyada kütləvi immunitet formalaşıb artıq". Professor yenə peyvəndləməni gözardı etməməyi, peyvəndləmənin vacib olduğunu vurğulayıb. Çünki virusun yenidən mutasiyaya uğrayıb-uğramayacağına kimsə zəmanət verə bilməz.

**Məlahət Rzayeva**

# O an tarixə düşdü

## "Oskar" mükafatını alan aktyor aparıcıya şillə vurdu



**ABŞ-ın Los-Anceles şəhərindəki "Dolby" Teatrında keçirilən 94-cü Oskar mükafatlarının təqdimat mərasimində tarixə düşən anlar yaşanıb. Tanınmış ameriaklı aktyor Uill Smit canlı efirdə mərasimin aparıcılarından olan Kris Roka şillə vurub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, hər kəsin gerçək, yoxsa qurma olduğunu düşündüyü gecədən sonra "The Academy"dən açıqlama gəlib. "The Academy" hadisə ilə bağlı Tvitter-də paylaşım edib: "Akademiya heç bir formada zorakılığı qəbul etmir. Bu gecə biz bütün dünyada kinosevərlər tərəfindən tanınmağa layiq olan 94-cü Akademiya Mükafatlarının qaliblərini qeyd etməkdən məmnunuq".

*Qeyd edək ki, aparıcı Kris Rokun Uill Smitin həyat yoldaşı Jada Pinket Smitlə bağlı zarafatından sonra J.Pinket Smitin üzündəki narazılıq diqqət çəkib. Rok səhnədə gülməyə davam edərkən, Uill Smit oturduğu yerdən qalxaraq səhnəyə çıxıb və Kris Roku şillələyib. U.Smit yerinə əyləşdikdən sonra "həyat yoldaşımın adını çəkmə" deyə yüksək səslə qışqırıb. Baş verən hadisədən sonra "King Richard" filminə görə ən yaxşı aktyor mükafatını almaq üçün səhnəyə çıxan Uill Smith təşəkkür nitqində olay haqqında da danışıb. O, baş verənlərə görə, Akademiyadan və digər namizədlərdən üzr istəyib. Smitin Kris Rokdan üzr istəməməsi diqqət çəkib.*

**Çimnaz Şahlar**

# Dünyada yalnız Kayseridə bitir

## Çöl novruzgülü baş qaldırıb



**Türkiyənin Kayseri bölgəsində yazın gəlişinin ilk əlaməti sayılan kırnavruzu - çöl novruzgülüsü baş qaldırıb.**

Bu çiçək yalnız Kayseri bölgəsinin Yəhyalı əyalətində bitir. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, çöl novruzgülünün çoxaldılması üçün Kayseri Təbiəti Mühafizə və Milli Parklar Müdürlüyü tərəfindən 2019-cu ildə xüsusi plan tərtib edilib. Plana əsasən çiçəyin təbii şəraitdə çoxalmasına mane olan otlar, bitkilər müəyyənləşib və çiçəyin yayıldığı ərazi təmizlənib. Məlum plan 2024-cü ilədək davam edəcək. Çiçəyin qorunması və təbii yolla çoxalmasına münbit şərait yaradılması məqsədilə bölgə məktəbləri də işə cəlb edilib, məktəblərə təlimatlar verilib. Çiçəyin toxumlarının toplanmasına başlanılıb. Həmçinin Kayseridə 1993-cü ildə kəşf edilib qeydiyyata alınmış Gökkız Çiğdəm və Quyruqlu Çiğdem (maqnoliya fəsiləsinə aiddir, zəfəran çiçəyinə də oxşayır) kimi nadir çiçək növləri də mühafizə altına alınıb.

**Məlahət**

# Küçə heyvanlarını öldürməyə çağırış etmişdi

## Yıldız Tilbenin cəzalandırılmasını istəyirlər



**Türkiyə heyvanları qoruma cəmiyyəti Yıldız Tilbe ilə bağlı şikayət edib.**

Axşam.az xəbər verir ki, məhkəməyə təqdim edilən şikayət ərizəsində ifaçının küçə itlərinə qarşı yazdığı statusla bağlı şikayət qeyd olunub. Yıldızın "Küçə itlərinə o ərazidə yaşayanlar zəhərli ət versin və hamısını öldürsün, insan parçalamaq nə deməkdir" yazdığı sözlər onları bu şikayətə məcbur edib. Ərizədə Tilbenin ona ünvanlanan tənqidlərdən sonra paylaşımını sildiyi vurğulanıb. Müğənninin daha sonra sosial şəbəkədə canlı yayıma girərək, insanları küçə heyvanlarını öldürməyə çağırması bildirilib. İfaçının buna görə cəzalandırılması tələb edilir.